

# XOŞBƏXT AİLƏ

Gürcüstan Müsəlmanları İdarəsi

Ailə elə bir yerdir ki, ərlə-arvad orada ülfət tapar və övlad tərbiyə edər. O qadın və ya kişilərin ki, möhkəm dayağı vardır, fərdi və ictimai həyatlarını gözəl şəkildə başa vura, cəmiyyətə sağlam övladlar təhvil verə bilirlər.
Bunu qeyd etmək lazımdır ki, ailə qurulan ilk gündən qadınla kişinin məsuliyyətləri başlayır. Bir ailənin xoşbəxt olması üçün hər ikisi bu amillərə riayət etsələr, daha hüzurlu və səfalı həyata malik olarlar.

## 1. Bir-birini anlama və uyğunluq

Ailə qurmaq dedikdə iki yetkin insanın evlənməsi nəzərdə tutulur. Ailənin möhkəm olması üçün hər iki tərəfin bir-birinə anlaması və uyğunlaşması şərtdir. Onlar iki müxtəlif şəxsiyyətə malik olmalarına baxmayaraq, gərək hər iki tərəf də bəzi rəftarlarından və adətlərindən əl çəksinlər. Əgər bu yolda səy göstərməzlərsə, xoşbəxt ailə idealı onlardan uzaq olar. Gərək hər iki tərəf qəbul etsin ki, fərqli insanlardır və fərqli cinsə malikdirlər. Əgər hər iki tərəf qəbul etsə ki, həm qadın və həm də kişinin nə idrak, nə hiss, nə düşüncə və nə də sevgi anlayışı eyni deyildir, bu zaman qarşı tərəfi anlamağa və qəbul etməyə çalışar.

## 2. Gözəl rəftar və xoş ünsiyyət

Bir-birinə qarşı gözəl rəftar nümayiş etdirmək hər bir qadınla kişinin vəzifəsidir. Bir qadının və ya kişinin gözəl rəftar nümayiş etdirməsi ürfdən, adətdən və cəmiyyətdən asılıdır. Meyarlar zaman və məkan dəyişdikcə dəyişər. Hər bir halda gözəl rəftar dedikdə o nəzərdə tutulur ki, qadınla kişi bir-birinə qarşı səmimi, mehriban və xoş əxlaqlı olsunlar. Bir-biri ilə mübarizə etməkdən, pis söz deməkdən və digər çirkin xasiyyətlərdən çəkinsinlər. Bir-birilərinin qəlbini sadə və mənasız şeylərə görə qırmasınlar.Qarşılıqlı ehtiram, bir-birinə sevgi göstərmək, güzəşt və əfv, məsuliyyəti qəbul etmək - gözəl rəftarın nümunələrindəndir ki, gərək hər iki tərəf buna riayət etsin. İmam Baqir (ə) buyurur: "Sizlərin Allah yanında ən sevimliniz o kəsdir ki, həyat yoldaşına daha çox hörmət edər".

## 3. Ailə arasında etibarlılıq və vəfalılıq

Ərlə arvad gərək bir-birinə qarşı etibarlı və vəfalı olsunlar. Ailə bönövrəsini süst edə bilən hər bir rəftardan çəkinməlidirlər. Vəfadarlıq ailə sütununu möhkəmləndirər, hər iki tərəfdə bir-birinə qarşı inam və etimad hissini gücləndirər. Ailədə hüzuru bərpa edər. Etibar olmayan yerdə sədaqət də, vəfa da öz dəyərini itirir. Həmişə səmimi olmaq, həyat yoldaşından heç nəyi gizlətməmək, hər şeyi açıq etiraf etmək, yalan danışmamaq lazımdır. İmam Əli (ə) buyurur: "Vəfadarlıq ülfətə səbəb olar". Quran buyurur: "Ey iman gətirənlər! Gümanlardan çox çəkinin. Çünki gümanların bəzisi(nin arxasınca getmək) günahdır və (həmin bəzilərin hansı gümanlar olması məlum olmadığı üçün onların hamısından çəkinmək lazımdır". ("Hucurat" 12).

## 4. Ailə işlərində və övlad tərbiyəsində əməkdaşlıq

Ərlə arvad ailədə rifahı təmin edə bilən tərəflərdir və ona görə də gərək hər ikisi həm ailə işlərində və həm də övlad tərbiyəsində həmkarlıq etsinlər. Övlad tərbiyəsi çox çətin və məsuliyyətli bir işdir. Tək halda onun öhdəsindən gəlmək mümkün deyildir. Uşaqlar adətən həm cismi və həm də ruhi cəhətdən tez zərər görə bilirlər. Rəftarlarının çoxunu böyükləri təqlid edərək öyrənirlər. Ona görə də valideynlər bu mühüm işdə bir-birinə həmkar olmalıdır. Həzrət Peyğəmbər (s) buyurur: "Övladlarınızı əziz tutun. Yaxşı tərbiyə edin ki, günahlarınız bağışlanılsın".

## 5. Qənaət və sadə yaşam tərzi

İstər qadın olun, istərsə də kişi, sadə yaşayın. Əlinizdə olanlarla kifayətlənin. Hər istəyimizə isə ən gözəl məkan olan axirət məkanında qovuşacağımızı unutmayın və çətinliklərə qarşı səbr edin.
Həyat dostunuzu başqaları ilə müqayisə etməyib halınıza şükr edin. Həzrət Peyğəmbər (s) buyurur: "O qadın ki, əri ilə ixtilaflı olar, onu gücü çatmayan işlərə vadar edərsə, əməlləri Allah tərəfindən qəbul olunmaz. Qiyamət günü isə Allahın qəzəbinə düçar olar".

## 6. Səbrli olmaq və güzəşt etmək

Əgər həyat yoldaşınızın rəftarı sizi əsəbləşdiribsə, daxilinizdə olan bu atəşi üzə çıxarmaq istəyirsiniz. Lakin bu işin sonu yaxşı deyildir. Yaxşı olar ki, bir qədər səbir edəsiniz. Həyəcanınızı ram etməyə çalışın. Düşünün və məntiqli yol axtarıb tapın.
Həyat yoldaşınızı həmişə bütün problemlərin səbəbkarı kimi görməyin. Bu zaman insan həmişə başqasını ittiham edər və özünü günahsız bilər. Səhvi başa düşmək – yolun yarısını getmək deməkdir. Bunu qəbul edin ki, hər ikiniz səhv edə bilərsiniz. Buna görə də güzəşt edib bağışlamağı bacarmaq lazımdır.: "Sizlərin Allah yanında ən sevimliniz o kəsdir ki, həyat yoldaşına daha çox hörmət edər".

## 7. Ailədaxili anlaşılmazlıqları zamanında və sakitcə həll etmək

Cəmiyyət içində bir-birinizin qüsurlarını söyləməyin. Bu sizin səmimiyyətinizə zərər verər və qarşıda istəməyəcəyiniz fəsadlara yol açar.
Əgər aranızda narazılıq varsa, bunu başqalarının da bilməsi şərt deyildir. Bəzi qadınlar ailə həyatında baş verən xəbərləri dostlarına, valideynlərinə danışmağı çox sevir və hər birindən yardım istəyirlər. Lakin onların hər biri öz düşüncəsinə və təcrübəsinə uyğun tövsiyə verir və bu yolla əksinə, həmin qadının ailə rabitələrinə ziyan vurmuş olurlar.
Həyat yoldaşları yadda saxlamalıdır ki, övladlar ailədə baş verən hər şeyin xəbərçisi ola bilər. Ona görə də aralarında olan anlaşılmaz vəziyyəti gizlində həll etməyə çalışmalıdırlar. Əgər həyat yoldaşınızla aranızda anlaşılmaz məsələ vardırsa, ancaq onu həll etməyə çalışın. Bəzən münaqişələr qızışan zaman qarşı tərəf köhnə dəftərləri açıb tökər və bir il əvvəl baş verənlərə görə onu günahlandırar. Ona görə də haşiyədən çıxmayın. Keçmiş narahatlıqları yada salmaqla, siz yeni problemlərlə üzləşəcəksiniz. Nəticədə həyat yoldaşınızın ürəyində yeni kin qapılarını açmış olarsınız.

# Qurana görə kişilər qadınlardan üstündürmü?



İslama görə cinsiyyətin insani keyfiyyətin dəyərləndirilməsində heç bir rolu yoxdur. Quran bütün insanların bir kişi və bir qadindan yaradılması həqiqətinə diqqəti çəkərək buyur ki, üstünlük meyarı yalnız təqva ilə ölçülür.

***Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır. Hücurat. 13.***

Əməllərin həyata keçirilməsi, kamillik dərəcəsinin əldə edilməsi yolları da qadın və kişi arasında eynidir və hər biri öz əməllərinin qarşılığını alırlar:

***Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. (Və ya gördükləri yaxşı işlərin müqabilində onlara daha yaxşı mükafatlarını verəcəyik!) Nəhl. 97.***

Bir qadın ilahi dərəcələrə yiyələnərək bütün möminlər üçün nümunə ola bilər:

***Allah iman gətirənlərə isə Fironun zövcəsini (Asiyə bint Məzahimi) misal çəkdi. O zaman o: 'Ey Rəbbim! Mənim üçün Öz dərgahında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən qurtar. Məni zalım qövmdən xilas et!' – demişdi. Təhrim. 11.***

Ancaq insanın üstünlüyü ilə vəzifələrin bölünməsini, ictimai rolları qarışdırmaq yalnışdır. Cəmiyyətdə ehtiyacların qarşılanması və ictimai məsələlərin səhmana salınması üçün insanlar öz öhdəsinə düşən rolunu oynamalıdır.

Cəmiyyətdə hamı həkim, yaxud çörəkçi ola bilmədiyinə görə , ailədə də hamı eyni öhdəliyi boynuna götürə bilməz.

***Kişi daha çox evdən qıraqda olduğuna, cəmiyyəti daha yaxşı tanıdığına, ailəyi qorumaq məsuliyyətini daşıdığına və onu təmin etməyə borclu olduğuna görə özünəməxsus yeri və öhdəliyi var.***

Qadın isə daha emosianal va mehribandır. Övlad dünyaya gətirmə yükünü təbiət özü onun çiyinlərinə vermişdir. Bu baxımdan qadının da özünəməxsus fərqli rolu vardır.

Bu fərqləri nəzərə alaraq müxtəlif fərqli qanunlar meydana çıxır. Məsələn, övlad anaya daha çox hörmət etməlidir, ancaq evin idarəçiliyi atanin öhdəsindədir. Quranın da buyurduğu kimi ailə sütunlarının möhkəmliyini kişi təmin edir:

Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər (onların hamisidirlər). Bu, Allahın onlardan birini digərinə üstün etməsi və (kişilərin) öz mallarından (qadınlar üçün) sərf etməsinə görədir. Nisa.34.

Təbii ki, bu müdiriyyət diktatorluq anlamına gəlməz və Quran bəzi yerlərdə qərar qəbul etmək üçün məşvərət etməyə göstəriş verir:

***Əgər ata və ana öz aralarında məsləhətləşib, uşağı (iki ildən tez) süddən kəsmək qərarına gəlsələr, ikisinə də heç bir günah olmaz. Bəqərə. 233.***

Quran qadına zülmü ən pis zülm növü adlandırmış və onun qiyamətdəki cox ağır əzabından çəkindirmişdir.

Təəssüf ki, başər bir çox hallarda buna riayət etmir. Bu üzdən bir çox cərəyanlar, o cümlədən feminizmin özü də qadınların xeyrınə xidmət etmir. Xüsusən də qadınların təbiətlərinə qarşı çıxır və onun analıq və uşaq dünyaya gətirmək qabiliyyətini qadın üçün ən böyük problemi hesab edirlər. Onların məqsədi bir qadını kişiyə çevirməkdir. Bir halda ki, məqsəd qadının təbiətindəki bacarığı və istedadlarını inkişaf etdirmək olmalıdır. Hər bir varlığın kamala çatmasının ən təbii yolu budur.

Soalcity.ir

Tərcümə edən: **Emil Kələyev**

# BAĞIŞLAMAQ VƏ GÜZƏŞTLİLİK

## AİLƏ İNSTİTUTUNUN YENİLMƏZ TƏMƏLLƏRİ

***Mübarək dinimizin nəzərində ən dəyərli quruluş – ailədir. Ona görə də ailədə nuraniyyətin artması, daimi mehribanlığın hökmranlığı, səfa və səmimiyyətin olması olduqca vacibdir. Ailədə bütün bunlara səbəb olan bir sıra amillər var. Bu amillərdən biri də güzəştdir. Bəhsimizdə ailədə güzəşt mövzusuna bir sıra aspektlərdən toxunacağıq.***



### İKİ XARAKTERLİ MÜNASİBƏT

Ümumiyyətlə insanlararası münasibətdə, insanlararası davranışlarda iki xarakterli əlaqələr olur. **Bunların ən çox yayılmışı və bizlərin də gündəlik yaşadığımız – adi gündəlik, məişət münasibətləridir. Bir də insanlararası ictimai xarakterli münasibətlər var.** Dinimiz nə qədər ictimai məsələlərdə prinsipiallığı, güzəştsizliyi tövsiyə edirsə, ictimai zülmlərə nisbətdə nə qədər tələbkar olmağı istəyirsə, ictimai müstəvidə nə qədər birmənalı davranmanı tələb edirsə, o qədər də adi insanlararası münasibətlərdə güzəştli olmağı tövsiyə edir.

Təəssüflər olsun ki, çox vaxt diametral əks vəziyyəti müşahidə edirik. Bəzən ailədaxili, dostlar arası münasibətlərdə insanlar bir səhvi, xətanı, anlaşılmazlığı onillərlə davam etdirə bilirlər. Amma, ictimai mövzularda ki, buna tələb var, daha güzəştli davranmağa üstünlük verirlər.

İnancımızın güzəşt və bağışlamaqla bağlı tövsiyələri insanlararası gündəlik münasibətlərə aiddir. Ailə münasibətləri də bunun əsasında dayanır.

### GÜZƏŞT VƏ BAĞIŞLAMA – ƏN ÜSTÜN ƏXLAQDIR

Ümumi olaraq deyə bilərik ki, İslamın ailə ilə bağlı tövsiyəsi güzəştcil olmaqdır. Dinimiz ailədə təğafül etməni, özünü görməməzliyə vurmağı tövsiyə edir. İslamın nəzərində güzəşt və bağışlama – əxlaqi keyfiyyətlərin tacıdır. Həzrət Əli (ə) buyurur: **“Güzəşt və bağışlama – əxlaqi keyfiyyətlərin tacıdır”.**

Yəni, biz bütün əxlaqi keyfiyyətləri götürsək – təvazökarlıq, ixlas, dürüstlük, doğru danışma – bunların hamısının tacı bağışlama və güzəştdir. İnancımızın nəzərində insanın həm bu dünya, həm də axirət üçün ona hər mənada əl tutan, üzünü ağ edən əxlaqi davranış – güzəşt və bağışlamadır.

Həzrət Rəsulallah (s) buyurur: **“İstəyirsiniz sizə dünya və Axirətdə ən üstün əxlaqdan xəbər verim? Sənə zülm edənə keçəsən. Səninlə əlaqəni kəsən qohumunla əlaqəni bərpa edəsən. Sənə pislik edən şəxsə yaxşılıq edəsən. Səni məhrum edən kəsə hədiyyə edəsən”.**

Təbii ki, öncə qeyd etdiyimiz kimi, burada da söhbət ictimai zülmlərdən deyil, adi məişət mövzusunda olan məsələlərdən gedir. Peyğəmbərimiz (s) bizlərə dünya və axirət əxlaqını tanıtdırır. Bir nəfər ailədə, ya qohumluqda bizi incidibsə, gərək keçək, kin saxlamayaq, əlaqəni kəsməyək.

Təsəvvürümüzə gətirək ki, bir ailədir. Bu ailənin içərisində qarşıdurmanın baş verməsi üçün bunu hər iki tərəfin istəməsi lazımdır. Əgər Həzrət Rəsulallahın (s) buyurduğu prinsiplərdən biri həyata keçsə, ailədə vəziyyət xeyli fərqlənər. Əgər ailə üzvlərindən biri məhrum etsə, o birisi isə ona bu rəftarın qarşılığında hədiyyə etsə - vəziyyət kökündən dəyişər. Biri pislik etsə, o biri qarşılığını yaxşılıqla qaytarsa – ailədə nuraniyyət bərpa olunar.

Həzrət Əli (ə) bizlərə bu müstəvidə ən pis şəxsləri tanıtdırır. Həzrət Əmirəlmöminin (ə) buyurur: **“İnsanların ən pisi o kəslərdir ki, digərlərini səhvini bağışlamırlar və onların eyiblərini örtmürlər”.**

Hansı insan belə xüsusiyyətə malikdirsə, dinimiz onu ən pis insan kimi dəyərləndirir. Gərək ailədə ailə üzvləri bağışlamağı bacarsın. Kim bağışlaya bilmir, kim digərinin eybinin üzərindən keçə bilmir – o, inancımızın nəzərində ən pis kəsdir.

### Məsumlar (ə) güzəşt etməməyi ən pis eyib kimi dəyərləndirir

Məsumların (ə) məntiqində güzəştliliyin, bağışlama, əfv ruhiyyəsinin olmaması çox mənfi dəyərləndirilir. Həzrət Əli (ə) buyurur: **“Az güzəştli olmaq – ən pis eyib və intiqam almaqda tələsmək – ən böyük günahdır”.**

İnsan üçün ən pis eyib – onun az güzəştli olmasıdır. Əgər insan bir kəsi bağışlamağı bacarmırsa, demək ki, düzəldilməli çox böyük eybə malikdir. Fərdi işlərdə, fərdi həyatda bağışlamağı bacarmaq həm də yetkinlik əlaməti, mənəvi həddi-büluğ əmanətidir. Çünki, bunun əksi – intiqam almağa can atmaqdır.

İnsan var ki, çox rahat şəkildə şəxsi məsələlərdə güzəşt edir, insan da var ki, dünya dağılsa da, kiçik bir

xəta edən kəsi bağışlaya bilmir. İnsanlar var ki, əlli il, altmış il hansısa bir xırda məsələni ürəyində saxlayır, bağışlaya bilmir, özü ilə qəbrə aparır. Həmin adam bir də görürsən ki, ictimai məsələlərdə heç də böyük prinsipiallıq göstərmir və rahat şəkildə zülmə güzəştə gedir.

**Dərinə gedəndə biz görəcəyik ki, bu cür mənfi xüsusiyyətlərin əksəriyyəti orta məktəbdə formalaşır. Orta məktəbdə insanların vərdişlərinə səhv mövzular qoyulur. Uşaqlar bir-birlərinə keçmirlər, amma ümumi problemlər qarşısında prinsipiallıq göstərmirlər. Sonra həmin məktəbli uşaqlar böyüdükdə də, ruhən həmin məktəbli halında qalırlar.** Zahirləri böyüyür, amma həmin o uşaqlıqda vərdiş etdikləri kin-küdurət, əvəz çıxma ruhiyyəsi ilə yaşayırlar.

Amma İslam dini insanı daxili bütləri, eqoları kənara qoymağa və Allah bəndəsi olmağa çağırır. Allah bəndəsi –bağışlamağı çox rahat bacaran adamdır. Mömininin ən bariz xüsusiyyəti – şəxsi mövzularda bağışlamağı bacarmaqdır. Mömin sanki fürsət axtarar ki, ona pislik etmiş, ona qarşı xətası olmuş birini bağışlasın.

### AİLƏ ÜZVLƏRİ BİR-BİRİLƏRİNİN EYİBLƏRİNİ ÖRTMƏLİDİR

Qeyd etdik ki, Həzrət Əli (ə) buyurur: **"İnsanların ən pisi o kəsdir ki, başqalarının büdrəmələrinə güzəşt etmir və onların eyiblərini örtmür".** Ailədə gərək tərəflər bu məsələyə xüsusi önəm versinlər. Ailə üzvləri heç öz yaxınlarının yanında belə, öz həyat yoldaşlarının eyiblərini faş etməməlidirlər. Bir də görürsən ki, ailə üzvlərindən biri öz həyat yoldaşından valideynlərinə gileylənir, onun eyiblərini öz valideynlərinə danışır. Nəticə etibarilə, belə etməklə o, öz valideynlərinin yanında həyat yoldaşını hörmətdən salmış olur.

Ailə üzvləri gərək bir-birilərinin eyiblərini gizlətsin, büdrəyərkən ayağa qalxmağa yardımçı olsunlar. Qurani-Kərimin məntiqinə görə, ailə üzvləri bir-biriləri üçün libasdır. Libasın məntiqi, missiyası – örtməkdir. Ailə üzvləri beləcə bir-birilərinin eyiblərini örtməlidirlər.

### BİRİNİN ÜZR İSTƏMƏSİNİ DƏRHAL QƏBUL ETMƏLİYİK

Həzrət Əli (ə) buyurur: **"Üzr istəməni qəbul et, yalandan olsa da belə".** Çox diqqət olunmalı məsələdir. Çox vaxt bizim belə bir məsələmiz yoxdur ki, dərhal üzrü qəbul edək. Dinimiz isə tələb edir ki, biri bizdən üzr istəyərkən, onun səmimi qəlbdən və ya elə-belə üzr istəməsini araşdırmayaq.

Dinimiz deyir ki, səndən hansısa bir səhvinə, xətasına görə üzr istəyən şəxsin üzrünü dərhal qəbul etməlisən, onun nə qədər səmimi olub-olmadığını araşdırmamalısan.

Əgər insan üzr istəyənin səmimi olub-olmadığını araşdırmaq istəsə, mütləq sonadək şəkk-şübhə içərisində olacaq. Hətta inancımız deyir ki, insan gərək üzr istəməni gözləmədən bağışlasın. Allah bəndəsi böyüklük etməyi bacarmalıdır. Bağışlamaq – bəzilərinin düşündüyü kimi, insana kiçiklik deyil, yalnız böyüklük gətirər.

### GÜZƏŞTİN GƏTİRDİYİ BƏRƏKƏTLƏR

Güzəştlilik ailəyə böyük bərəkət gətirər. Güzəştlilik özü ilə 4 bərəkət gətirər. **Birincisi, bağışlama və güzəşt insanlara ruhi aramlıq bəxş edər.** Bir ailədə ki, tərəflər bir-biriləri ilə bağışlama əhval-ruhiyyəsində olarlar, bir-birinə keçməyi bacarırlar – o ailədə ruhi aramlıq olar. Bunun əksi – intiqam almaq ruhiyyəsidir. Belə yerdə tərəflər əvəz çıxa bilmək üçün fürsət gəzərlər. Bu da nəticə etibarilə ailənin nuraniyyətini aradan aparar.

**İkinci mühüm məsələ - kin və küdurətin aradan getməsidir.** Əgər bir ailədə bağışlama, keçmə ruhiyyəsi üstünlük təşkil edərsə, o ailədə kin və küdurət qalmaz. Həzrət Peyğəmbər (s) buyurur: "Bir-birinizə güzəşt edin ki, kin-küdurət aradan getsin". Güzəştlilik, bağışlama intiqam alma, əvəz çıxma ruhiyyəsini aradan aparır, nəticədə kin-küdurətlər də aradan getmiş olur.

**Bağışlama və güzəştin üçüncü mühüm bərəkəti – izzəti artırmasıdır.** Bağışlama və güzəştlilik ailədə izzətin artmasına gətirib çıxarar. O ailələrdə ki, güzəştlilik hökm sürür – o ailədə, o ailənin üzvlərində izzətlilik olar. O ailələr ki, orada bağışlama yoxdur, bir-birini əzməyə, kiçiltməyə, əvəz çıxmağa çalışırlar – o ailədə izzət olmaz.

Həzrət Peyğəmbər (s) buyurur: **"Güzəşt bəndənin izzətini artırır. Buna görə güzəşt edin, Allah sizə izzət əta etsin".** İnsanın daxilində belə bir cahili nigarançılıq ola bilər ki, birini bağışlasa, güzəşt etsə - abrından gedər, o, izzətdən düşər. İnancımız bununla bağlı bizə tam zəmanət verir. Əziz Peyğəmbərimiz (s) bəyan edir ki, bağışlamaq, güzəşt etmək nəinki insanı izzətdən salmaz, əksinə - onun daha da izzətli olmasına səbəb olar. Həzrət İmam Sadiq (ə) əziz Peyğəmbərimizdən (s) nəql edir: **"Sizin üzərinizdə güzəşt etmək və bağışlamaq olsun. Çünki, güzəştlilik və əfv insanda izzətdən başqa heç nə artırmır. Belə isə güzəşt ediniz ki, Allah sizi izzətli etsin".**

Ailədə bağışlama ruhiyyəsi ailə üzvlərini izzətə çatdırar.

**Güzəştin dördüncü bərəkəti isə budur ki, ömrü uzadar.** Bağışlama və güzəştlilik ömrün uzanmasına təsir qoyan məsələlərdəndir. Əziz Peyğəmbərimiz (s) buyurur: **"Kim çox güzəşt edər – ömrü uzanar".**

### BAĞIŞLA Kİ, ALLAH DA SƏNİ BAĞIŞLASIN

Ən mühüm məsələ isə sözsüz budur ki, güzəştlilik, əfv həm də Allahın insanı bağışlamasına gətirib çıxarar. Bir insan ki, ən xırda məsələlərdə, məişət mövzularında, ailədə olan kiçik söz-söhbətlərdə güzəştli davranmır, bağışlamağı bacarmır – Allahdan özünün bağışlanmasını necə istəyə bilər? Allahın bağışlamasını qazanmağın



yollarından biri də digərlərini bağışlamaqdır. Biz bağışlayaq ki, Allah da bizi bağışlasın.

Əgər bağışlamağın təsiri olmasını istəyiriksə, gərək bu proses danlaqla, minnət qoymaqla olmasın. Həzrət İmam Rza (ə) buyurur: "Ən gözəl bağışlama – danlamaqla olmayanıdır". Ailə üzvləri bir-birilərinə keçərkən, güzəşt edərkən gərək bu məsələni nəzərə alsınlar.

Digər hədisdə göz yummaq şəxsiyyətli insanın xüsusiyyəti kimi təqdim edilmişdir. İmam Sadiq (ə) buyurur: **"Üç şey şəxsiyyətli insanın nişanələrindəndir: gözəl əxlaq, qəzəbi yatızdırmaq, göz yummaq".**

### DİNİN YARISINI QORUMAQ

Təbərrük üçün Qurani-Kərimin ailə qurmaqla bağlı bəzi ayələrinə və mübarək hədislərə diqqət edək.

"(Ey gənclərin ixtiyar sahibləri,) subay kişilərinizi və ərsiz qadınlarınızı, eləcə də qul və kənizlərinizdən evlənmək istedadı olanları evləndirin. Əgər yoxsul olsalar, Allah onları Öz lütfü ilə dövlətli edər. Allah sonsuz genişlik sahibi və biləndir". ("Nur" surəsi, 32).

Həzrət Peyğəmbər (s) buyurur: **"Hər kim evlənər, həqiqətən də dininin yarısını qorumuş olar".**

"Onların yanında aramlıq tapasınız deyə sizin üçün (mələklərdən, cinlərdən və başqa məxluqlardan deyil) öz cinsinizdən zövcələr yaratmağı və sizin aranızda (ər-arvadın, yaxud insanların arasında) dostluq əlaqəsi, batini mehr-məhəbbət yaratması – onun nişanələrindəndir, həqiqətən, bunda düşünən bir qövm üçün (Allahın tövhidi, qüdrəti və hikmətinə dair) nişanələr vardır". ("Rum" 21).

Həzrət Peyğəmbər (s) buyurur: **"İslam dinində heç bir bina Allah yanında evlilik binası kimi ən sevimli şəkildə inşa edilməmişdir".**

**Hacı İlqar İbrahimoğlu,**
ilahiyyatçı-filosof

# İNSANLAR NİYƏ GÜLÜMSƏMİR?



**Yəqin siz də nəqliyyat vasitələrində, küçədə və ümumiyyətlə insanların sıx olduğu yerlərdə, müşahidə etdiyiniz insan üzlərini xatırlayırsınız... Son dəfə hansı insanın simasında təbəssüm gördüyümüzü yəqin çox düşünməli olacağıq.**

Yaxşı, deyək ki, insan tək olanda niyə təbəssüm etsin ki (amma ən elementar, yanında asqıran bir insana "sağlam olun" sözünü də təbəssümlə deyə bilər) amma lap deyək ki, bu cür də edə bilmirsə təbəssüm, elə olur ki, misal üçün metronu götürək, körpəli bir ana daxil olur vaqona və əyləşir. Həmin körpə bir-bir vaqondakı insanları nəzərdən keçirir. Bir vaqon insanın içindən bircə nəfər həmin körpəyə baxıb gülümsəyir. Körpə də qatardan enənəcən həmin ona gülümsəyən insana baxır... Toplumda üzümüzə baxan şirin bir körpəyə də təbəssüm etməyən insanlar çoxluq təşkil edir...

Hələ gülümsəmək o yana qalsın, insanların üzü elə bil qəddarlaşıb, acılaşıb, həddindən artıq ciddiləşib. Hamının sanki, qaşları düyünlənib...

Bəlkə yazıda insana inandırıcı gəlmir, amma bircə dəfə küçədə və ya başqa yerdə insanların kütləvi olduğu yerlərdə müşahidə aparsaq və gülmək bir tərəfə, insanların üzündə yaşamaq sevincinin olmadığını müşahidə edərik.

İnsanlarımız artıq üzügülər deyil. Üzlərinə baxanda adama elə gəlir ki, hamısı dərdli və qəmlidir. Amma bu sahənin mütəxəssislərinin fikrincə, ən təbəssümlü insanlar – çox vaxt elə ən dərdli və qəmli insanlar olur...

Həyat şəraiti, dolanışıq da üzügülər olmamağa səbəb deyil. Bir halda ki, gülmək ki, pulla deyil... Əksinə, təbəssüm özü insana ruzi qapıları açar... Hətta, bir Çin atalar sözü var, deyir gülməyi bacarmayan adamdan ticarətçi olmaz...

Küçədə, bazarda gördüyümüz insanlar hamısı mömin və möminə deyillər, yəni hamısı, əziz Peyğəmbərimizi (s), Həzrət Əlini (ə) inanclı bir insan tanıdığı kimi tanımır. Onların necə mehriban, üzügülər, təbəssümlü olduqlarını, bəlkə də illərlə Peyğəmbərimizin (s) və digər Məsumların (ə) həyatını dönə-dönə oxuyan insana nisbətən az bilirlər. Amma inanclı insan ki, bilir – özü oxuyub, yanında danışıblar. Bəs o zaman hanı üzündəki təbəssüm?

Burada söhbət bir xanımın küçədəki tanımadığı insanlara təbəssümündən getmir, əksinə, öz dostlarına – rəfiqələrinə, ailəsinə, möminə bacılarına olan təbəssümdən gedir.

Təbəssüm – insan həyatının olmazsa-olmazlarından biridir. İnsan kimi mövcudiyyəti qorumaq üçün digər vacib amillərlə yanaşı, təbəssümümüzi də qorumalıyıq. Təbəssümsüz bir toplum manqurt bir toplumdur. Həqiqətən mömin bir insan olmaq istəyiriksə, bilməliyik ki, möminin üzü gülər olar, təbəssümlü, mehriban olar.

Mömin nihilist olmaz, pessimist olmaz. İslam – mehriban dindir, təbəssümlü dindir. Çalışaq biz də öz dinimizin rənginə boyanaq, nəinki, dinimizi öz pessimist rəngimizə boyayaq. Həqiqətən də insana yerində təbəssüm və üzügülərlik çox yaraşır.

Hər birimizin üzümüzün təbəssümlü olması diləyi ilə...

Xəyalə Quliyeva

# DÜNYANIN ƏN TƏHLÜKƏLİ "ALZHEİMER"İ

# UNUTQANLIQ XƏSTƏLİYİ



**Bəşərin düçar olduğu ən təhlükəli xəstəliklərdən biri "alzheimer" xəstəliyidir. Bu xəstəlik bəzi beyin hüceyrələrinin məhv olması ilə nəticələnən, dəqiq səbəbləri bilinməyən nevroloji bir xəstəlikdir. Xəstəlik klinik olaraq incələnən zaman yaddaşın nəzərə çarpacaq dərəcədə pozulması, beynin günbəgün yaddaş funksiyasını itirməsi, başqa sözlə, unutqanlıqla qarşımıza cıxır, insanın ruhu, psixologiyası ilə birbaşa əlaqəlidir. Biz insanlar cismani xəstəliyə dərhal reaksiya veririksə, ruhi-psixoloji xəstəliklərin müalicəsinə elə də önəm vermirik. Zahiri gözəlliyimizə əhəmiyyət verdiyimiz qədər, ruhumuzun gözəlliyini də diqqət mərkəzində saxlasaydıq, dünya və axirətimiz ilahi rəngə boyanar, səadət və xoşbəxtlik arzularımız çin olardı!**

**ALLAH-TAALANI UNUTMAQ**

Unutqanlığın ən pis növü Yaradan Allahı unutmaqdır. Bu növ xəstəliyə tutulan insan şeytani və nəfsani, maddi və dünyəvi istəklərinə çatmaq üçün hər bir işə əl atmaqdan çəkinmir. Bu xəstəlik növünün mənşə və səbəblərinə nəzər yetirdikdə, aşağıdakı mətləblər diqqəti özünə cəlb edir:

**1. Dünya düşkünlüyü:** Allah-Taalanın nurlu kəlamları və Quran ayələrində dünya düşkünlüyü, var-dövlətə bağlılıq, rahattələblik və eyş-işrət Allah-Taalanı və xoşbəxt həyat tərzini unutduran əsas amillərdəni biridir. Adətən, maddi və dünyəvi ləzzətlərə çatmaq düşüncəsi ilə yaşayanlar istər-istəməz mənəviyyatı və ruhi parametrləri ilə birbaşa əlaqəli olan işləri unudur. "Zümər" surəsinin 8-ci ayəsində buyurulur:

"İnsana bir zərər toxunduqda, tövbə edərək Rəbbinə yalvarar. Sonra (Allah Öz) dərgahından ona bir nemət əta etsə, əvvəlcə kimə dua etmiş olduğunu unudar və (xalqı) Allah yolundan azdırmaq üçün Ona şəriklər qoşar. (Ey Peyğəmbər!) De: "Hələ küfrünlə bir müddət dövran sür. Şübhəsiz ki, sən cəhənnəm əhlindənsən!"

"Munafiqun" surəsinin 9-cu ayəsində də belə buyurulur:

"Ey iman gətirənlər! Nə mal-dövlətiniz, nə də övladınız sizi Allahın zikrindən yayındırmasın! Hər kəs bunu etsə (Allahı yada salmasa), belələri əsl ziyana uğrayanlardır."

**2. Şeytan:** Qurani-Kərimin müxtəlif ayələrində insana Allah-Taalanı unutduran ən mühüm amillərdən biri kimi "şeytan" göstərilir. "Mucadilə" surəsinin 19-cu ayəsində buyurulur:

"Şeytan onlara hakim olmuş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın ordusudurlar. Bilin ki, şeytanın ordusu – məhz onlar ziyana uğrayanlardır!"

**3. Günah və çirkin işlər:** Günah zəhərli xasiyyətinə görə insanın ruhu və psixologiyasına təsir göstərib, insana öncəki inanclarını unutdurur və həmin inancları həyatda gerçəkləşdirməkdən çəkindirir. "Rum" surəsinin 10-cu ayəsində buyurulur:

"Sonra da Allahın ayələrini yalan hesab edib onları istehza etməklə pis iş görənlərin aqibəti lap pis oldu!"

**ALLAHI UNUTMAĞIN ACI NƏTİCƏSİ**

**1. Qəfildən gələn ilahi əzab:** "Ənam" surəsinin 44-cü ayəsində buyurulur:

"(Kafirlərə) edilmiş xəbərdarlığı unutduqları zaman (küfrlərini daha da artırmaq məqsədilə) hər şeyin (bütün nemətlərin) qapılarını onların üzünə açdıq. (Kafirlər) özlərinə verilən nemətlərə sevindikləri vaxt onları qəflətən yaxaladıq və onlar (hər şeydən) məhrum oldular."

**2. Şeytanla yoldaşlıq:** Həyatda Allahı yaddan çıxarmağın ən çətin və acı nəticəsi Allahın dərgahından qovulmuş və Onun lənətinə gəlmiş varlıqla – şeytanla dostluq və yoldaşlıqdır. Təbii ki, bu sayaq yoldaşlığın sonu ilahi əzaba düçar olmaqdır. "Zuxruf" surəsinin 36-cı ayəsində şeytanla yoldaşlıq insanı Allahdan yayındıran bir amil kimi göstərilir və buyurulur:

"Hər kəs rəhman Allahın zikrindən boyun qaçırsa, Biz ona şeytanı ürcah edərik və onun (şeytanın) yaxın dostu olar."

**3. İlahi rəhmətdən məhrumluq, dünya və axirətdə kor olmaq:** İlahi lütf və mərhəmətdən məhrumluq dünya həyatında Yaradan Allahı yaddan çıxarmağın acı nəticələrindən biridir. "Taha" surəsinin 124-cü ayəsində buyururlur:

"Hər kəs Mənim "zikr"imdən üz döndərsə, güzəranı daralar və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik!"

Əmirəlmöminin Əli (ə) bu haqda buyurur:

"Hər kim Allah-Taalanı unutsa, Allah-Taala da ona nəfsini unutdurar və qəlbini kor edər." ("Təsnifu qurərilhikəm və durəril-kəlim", səh.190, hədis 3666.)

Bir sözlə, Yaradan Allahı unutmaq ən təhlükəli ruhi-psixoloji bir xəstəlikdir və Quran ayələrinə əsasən, dünyaya bağlılıq, şeytani qurğulara aldanmaq və günah batlağına girmək bu xəstəliyin əsas amilləridir. Allahdan istəyirik ki, bizi Özünün müti bəndələrindən qərar versin!

Rza Şükürlü

# MEHRİBAN ALLAHDAN NƏ ÜÇÜN QORXMALIYIQ?



***"Sizi yalnız o Şeytan öz dostlarından qorxudub çəkindirir. Amma siz onlardan qorxmayın! Əgər möminsinizsə, Məndən qorxun!" ("Ali-İmran" surəsi, ayə 175.)***



***Məsumların (ə) dua və münacatlarında daim Allah qorxusu yad edilir. Hətta imam Səccadın (ə) bir münacatı "Munacatul-xaifin" – "Qorxanların münacatı" adlanır. Peyğəmbər (s) və imamların (ə) bütün hərəkətlərində Allah qorxusu müşahidə edilir. Hətta tarixdə göstərilir ki, bəziləri Allah qorxusundan huşlarını itirirmişlər.***

***Allahdan qorxmaq nə deməkdir? İnsan qorxduğu mövcudu sevə bilərmi? Qorxudan qılınan namazdan necə ləzzət almaq olar?***

Qeyd etməliyik ki, ayə və rəvayətlər Allah qorxusunu müsbət hal kimi tanıtdırırlar. Amma bu məsələyə şübhə ilə yanaşanlar da var. Bəziləri iddia edirlər ki, Allah mərhəmətlidir və Ondan qorxmağa dəyməz. Əslində isə Allahdan qorxan öz əməllərinə görə qorxmalıdır. Allah-Taalanın varlıq aləmində hökm sürən qanunlarına görə günah cəza ilə nəticələnir. Qiyamət günü insan Allahın yox, öz günahlarının cəzasına çatacaq. Təsəvvür edin ki, bir şəxs öz bağına çəkdiyi dəmir hasara cərəyan buraxaraq xəbərdarlıq işarəsi qoyub. Əgər bir kəs xəbərdarlığa məhəl qoymadan hasara toxunub ölərsə, bu hadisənin səbəbkarı bağ sahibi deyil.

Bu qorxu insanda təvazökarlıq halı yaradır və onu müxtəlif günahlardan çəkindirir. Amma qəlbində Allah qorxusu olmayanlar min bir cinayətə əl ataraq, nəhayətdə cəhənnəm əzabına düçar olurlar. Demək, Allah qorxusu insan üçün çox faydalıdır və hər bir insan özündə bu halı yaratmağa çalışmalıdır.

**ALLAH QORXUSUNUN DƏRƏCƏLƏRİ**

Allah qorxusunun dərəcəsi insanın iman mərtəbəsindən asılıdır. Adi insanlarla övliyaların qorxusu arasında çox fərq var. Övliyalar üçün dünya təhlükələri heç bir qorxu törətmir. "Yunis" surəsinin 62-ci ayəsində oxuyuruq:

"Bilin ki, Allahın dostları üçün heç bir qorxu yoxdur və onlar kədərlənməzlər."Övliyalar zalım rəhbərdən, qaçaq quldurdan və digər dünyəvi təhlükələrdən yox, yalnız Allahdan qorxarlar.

Əhli-beytdən (ə) nəql olunmuş dualara nəzər salsaq, faydalı qorxunu tanıya bilərik. "Kumeyl" duasında imam Əli (ə) Allaha müraciətlə belə ərz edir: "Tutaq ki, əzabına səbirdə bildim, bəs Səndən uzaqlığa necə dözəcəyəm?!" Övliyaların qorxusu biz düşündüyümüz qorxu deyil. Onlar Allahın əzabını bizdən çox dərk etdikləri üçün, Allahın narazılığından qorxurlar. Gəlin etiraf edək ki, bu hissləri anlamaq bir o qədər də asan deyil. Deyilənləri anlamaq üçün məhəbbət bağlılığına nəzər salaq. Aşiqin ən böyük ehtiyacı məşuqun diqqətini cəlb edib ona qovuşmaqdır. Vüsalın ziddi fəraqdır. Aşiq öz məşuqunun fəraqından nalə çəkir. Allahın fərağından nalə çəkənlər də var. Əgər ilahi eşqi dərk etmiriksə, bunun səbəbi mərifətimizin azlığıdır. İlahi eşqdə də vüsal var. Əgər imam Əli (ə) şirin vüsalı dadmasaydı, acı fəraqdan qorxmazdı. Vüsalın şirinliyi məhəbbətin mərtəbəsindən asılıdır. Övliyaların duyduğu ləzzət misilsizdir və bu halla tanış olmaq üçün münacatları mütaliə etmək lazımdır. Bu mütaliələrdən sonra məsumların (ə) ilahi məhəbbətinə heyran qalmamaq olmur.

Hər halda, ilahi məhəbbəti dadanlar üçün ikinci ləzzətli şey yoxdur. İmam Səccad (ə) "Minacatul-muhibbin" duasında Allaha belə müraciət edir: "Pərvərdigara

Sənin məhəbbətinin şirinliyini dadan Səndən üz döndərərmi?!" Bu şirinliyi dadanlar üçün ən böyük qorxu vüsaldan məhrum olmaqdır. Bəli, Allah qorxusunun belə bir mərtəbəsi var.

**ALLAHIN NƏZƏRİNDƏN MƏHRUMLUQ QORXUSU**

Qorxunun digər bir dərəcəsi axirət nemətlərindən məhrum olmaq qorxusudur. İlahi nemətlər isə iki qismdir: maddi nemətlər və mənəvi nemətlər. Kamil mərifət sahibləri üçün mənəvi nemətlər hər şeydən üstündür və onlar bu nemətləri itirməkdən qorxurlar. Quran ayələrindən məlum olur ki, ən böyük cəza mənəvi cəzadır: "Ali-İmran" surəsinin 77-ci ayəsində buyurulur:

"Allah ilə olan əhdlərini və andlarını ucuz bir qiymətə satan şəxslərə axirət nemətlərindən heç bir pay yoxdur. Allah qiyamət günündə onları dindirməz, onlara nəzər salmaz və onları (günahlarından) pak etməz (təmizə çıxarmaz). Onları şiddətli bir əzab gözləyir!"

Bəli, bəzilərinin insanlıq şəxsiyyəti o qədər alçalar ki, Allahın nəzərindən məhrum olarlar. Məhəbbət haqqında təsəvvürü olanlar gözəl anlayırlar ki, məhbubun baxışından məhrum olmaq necə böyük dərddir. Körpə üçün ən böyük narahatlıq ananın nəzərindən məhrum olmaqdır. Mərifət əhli üçünsə ən böyük əzab Allahın onlardan üz döndərməsidir. Körpəsindən incimiş ana ondan üz çevirdikdə uşaq ananın ətəyindən yapışır, özünü çox narahat hiss edir. Allah kafirlərə və günahkarlara bu sayaq biganəlik göstərir. Ona görə də bir çox imanlı insanlar Allahın nəzərindən məhrum olmaqdan qorxurlar. Avam insanlar isə elə başa düşürlər ki, Allah onları sevir və onlardan razıdır.

Mərifət əhli üçün ən dəyərli nemət Allahın diqqətidir. Onlar öz "ya Allah" çağırışlarına Allahdan cavab gözləyir və bəzən də buna nail olurlar. Məsum İmamların (ə) münacatlarında Allahdan cavab eşitmək arzusu önəmli yer tutur. "Biharul-ənvar" kitabının 90-cı cildində belə bir münacat bəyan olunur: "Pərvərdigara! Səni çağırdığım zaman səsimi eşit, dua edərkən məndən üz çevirmə!" Deməli, Allahın insandan üz çevirməsi daha dərin mənaya malikdir. Əgər Allah hər şeyi eşidəndirsə, necə ola bilər ki, kiminsə çağırışını eşitməsin? Deməli, "nəzər salmaq", "eşitmək" tamam başqa mənadadır.

İnsan bəzən belə sözlər işlədir: "Filankəs, mənə baxmırsan", "filankəs məni eşitmədi". Bu cümlələr sözün həqiqi mənasında işlədilməmişdir. Əgər bir rəhbər haqqında deyilərsə ki, "bu rəhbər xalqını eşitmir" və ya "bu rəhbər xalqına baxmır", aydın məsələdir ki, söhbət adi eşitməkdən, baxmaqdan getmir. Sadəcə, qulaqla eşitmək, gözlə baxmaq ayrı, məhəbbət və mərhəmətlə baxıb-eşitməksə ayrıdır. Məsumlar (ə) Allahdan mərhəmət dolu baxış və sevgi dolu dinləmə arzulamışlar.

Deməli, etinasız münasibət möminlərdə qorxu yaradır. Onlar bu münasibəti cəhənnəm əzabından da ağır bilirlər.

**GÜNAH QORXUSU**

Adi insanlar, adətən, günahlarına görə qorxurlar. Təbii ki, hər bir günah xoşagəlməz sonluqla nəticələnə bilər. Əgər insan günahlarından qorxmaqla Allaha yaxınlaşa bilirsə, bu müsbət bir haldır. Təəssüf ki, mərifət və imanı zəif insan nə qədər günah etsə də narahat olmur. Qurani-Kərimdə yüzlərlə ayə cəhənnəm əzabından danışır. Göstərilir ki, bu əzabın çox böyük və dözülməz olması qeyd olunur. Oxuduğumuz bu ayələr bizə təsir edirmi? Bir şəxs bu ayələri gözəl səslə oxuduğu zaman deyilən sözlərdən xoflanmaq əvəzinə, səsin gözəlliyindən ləzzət alır. Hansı ki, cəhənnəm ayələrini eşidən insan divanəlik həddinə çatmalıdır.

Günahın cəzasından əlavə onun çirkinliyinə, Allaha qarşı qiyam olmasına diqqət yetirmək lazımdır. Necə ola bilər ki, Allahın verdiyi nemətlər müqabilində Ona təşəkkür etmək əvəzində günaha yol verək?

Allah-Taala buyurur ki, mənim göstərişlərimdən çıxan insan özünün və mənim düşmənimi şad edər. Amma biz bilə-bilə Allahın düşmənini sevindiririk. Allahla müxalifət etmək şeytana itaət deməkdir. "Yusuf" surəsinin 5-ci ayəsində oxuyuruq:

"Həqiqətən şeytan insanın açıq-aşkar düşmənidir." Yaxın dostunun düşməni ilə əməkdaşlıq etmək dosta xəyanət etmək deyilmi?!

Əgər yaxşılıq etdiyiniz adam sizə qarşı çıxsa, ona yenə də yaxşılıq edərsinizmi? Sözsüz ki, qəzəblənib həmin şəxsdən üz döndərərsiniz. Bəs nə üçün insan Allahı qəzəbləndirməkdən qorxmur? Məsumlar isə Allaha belə yalvarır: "Pərvərdigara, Səni qəzəbləndirməkdən qorxur, Sənə sığınıram." İnsan yol verdiyi günahların mahiyyətini anlaya bilsə qorxudan tir-tir əsər. O, etdiyi günahların müqabilində qucaq açmış əzablardan xəbərdar olsa, mum tək əriyər.

İmam Əli (ə) kimi əzəmətli bir şəxsiyyət görün necə sızıldayır: "Aman azuqənin azlığı və səfərin uzaqlığından!" ("Allaha doğru", Ayətullah Misbah Yəzdi, səh.223-230.)

(Maide.az)

# KƏBƏ MÖVLUDU



***Hicaz diyarı hələ qədim dövrlərdən haram aylarda, xüsusilə rəcəb ayında saya gəlməyən ziyarətçilərə ev sahibliyi edirdi. Onlar uzaq yollardan şanlı Kəbəyə doğru tələsir, çoxlu sayda hədiyyələr, qurbanlıqlar gətirərək bir ümman şövqlə o evə fəda edirdilər.***

***Bütün tayfa və qəbilələrin xüsusi hörmətlə yanaşdığı haram aylardan olan rəcəbin ikinci cüməsi idi. Kəbə ətrafında qəribə qələbəlik var idi. Gəncə, ahıla özündə yer verən geniş xalq kütləsi xüsusi ehtiramla Allah evinin ətrafına dolanırdı. Solğun çöhrəli hamilə qadın taqətsiz halda Allah evinin ətrafına dolanır, titrək əllərini Kəbə üzərindəki örtüyə toxundurur və göz yaşı tökərək dodağının altında pıçıldayırdı: "İlahi, mən sənə iman gətirmişəm. Sənin tərəfindən gələn peyğəmbərlərə, kitablara inanıram. İlahi, mən bu qədimi evi inşa edən babam İbrahim Xəlilin dinindəyəm. İlahi, sənə and verirəm, bu evi inşa edənin haqqına, bətnimdəki doğulacaq körpənin haqqına, bu doğuşu mənim üçün asanlaşdır!***

***Maraq dolu gözlər onu görür, həssas qulaqlar sözlərini eşidirdi. Beyinlərdə maraq hissi oyanırdı. Gözlənilmədən hamıdan heyrət dolu fəryad ucaldı. Bunun ardınca isə tam sükut hakim kəsildi. Boğazlar qurudu, üzləri təəccüb ifadəsi bürüdü, nəfəslər köksləřdə dondu.***

***Kimsə sükutu sındırıb: "Az öncə Kəbənin divarı yarıldı, hamilə qadın Allah evinə daxil oldu", - deməyə cəsarət göstərmirdi.***

***Kim inanardı ki, bərk daş ağuşunu açıb, hamilə qadına özündə yer verib?!***

***Kəbə xidmətçilərinin qıfılı açmaq səyləri nəticə vermədikdə kütlənin heyrəti daha da artdı.***

***Anbaan izdiham çoxalırdı. Hamı bu sirrin sonunu gözləyirdi. Heyrət, nigarançılıq bürümüş kütlə üçün bir an bir saat qədər uzun keçirdi. Hamı hansısa qeybi bir qüvvənin bu sirri açmasını gözləyirdi.***

***Uzun müddət keçdikdən sonra həmin bərk daş ağuşunu açdı, Fatimə bint Əsəd qoynunda yeni dünyaya gəlmiş körpəsi ilə xaric oldu.***

***Sevinc səsləri ucaldı və Məkkə evlərində əks-səda verdi. Peyğəmbərin (s) əmisi və ən böyük hamisi həzrət Əbu Talib gözlərindən fərəh saçaraq fəryad çəkdi: "Ey camaat! Allahın vəlisi Allah evində dünyaya göz açdı".***

***Bu həşəmətli və bənzərsiz tarixi hadisə Əbrəhənin Allah evinə hücumundan ("Am ıl-fil" – Fil ili) otuz il sonra, rəcəb ayının on üçü, cümə günü baş vermişdir.***

**Doğumla bağlı hədislərin mütəvatirliyi**

*Bütün tarixçi və hədisçilər yekdilliklə qəbul edirlər ki, imamət günəşi Kəbənin içindən saçmışdır. İmam Əlinin (ə) Kəbənin içində dünyaya gəlişi danışılmaz tarixi faktlardandır. Heç bir insaflı tədqiqatçı onun sənədinə şübhə ilə yanaşa bilməz.*

*İndi isə bir qrup əhli-sünnə aliminin etiraflarını nəzərdən keçirək:*

**1. Hakim Nişapuri**

Hakim Nişapuri kimi tanınan Hafiz Əbu Əbdüllah Məhəmməd ibn Əbdüllah (vəfat- h. q. 405) çox məşhur əsəri "Müstədrək əs-səhiheyn"də yazır:

"Fatimə bint Əsədin Əmir əl-Möminin Əli ibn Əbu Talibi Kəbə evində dünyaya gətirməsini göstərən hədislər mütəvatirdir".

**2. Gənci Şafei**

Gənci Şafei kimi şöhrət qazanmış Hafiz Əbu Əbdüllah Məhəmməd Yusif Qərəşiyy (vəfat – h. q. 658) "Kifayə ət-talib" kitabında yazır:

"Əmir əl-Möminin Əli ibn Əbu Talib həşəmətli Məkkədə, "Beyt əl-Həram"ın içində 13 rəcəb, cümə gecəsi, Fil ilindən ("Am ıl-fil") otuz il sonra dünyaya göz açmışdır. Ondan öncə və ya ondan sonra heç bir zaman kimsə Kəbədə doğulmamışdır. Bu xoşbəxt doğum onun üçün kəramət və fəzilət, Allah evi üçün də fəzilət və əzəmətdir".

**3. Alusi**

"Təfsir əl-Alusi"nin müəllifi Şəhab əd-Din Əbu əs-Səna Seyid Mahmud Alusi, Əbd əl-Baqi Əfəndinin "Eyniyyə" qəsidəsinə geniş şərh yazmışdır. O, bir beyti izah edərkən yazır:

"Əmir əl-Mömininin Kəbənin içində dünyaya gəlişi bütün dünyada məşhurdur. Hər iki məzhəbin (əhli-sünnə və şiə) kitablarında bu haqda hədislər mövcuddur. Ondan başqasının haqqında əsla belə bir fəzilətə rastlanılmamışdır. Bəli, nə qədər ləyaqətlidir ki, öndərlər öndəri möminlərin qibləsində dünyaya göz açmışdır. Həmd və səna o Allaha məxsusdur ki, hər şeyi özünə layiqli yerdə qərarlaşdırır və o müdriklər müdrikidir".

**4. Zəhəbi**

Hafiz Şəms əd-Din Əbu Əbdüllah Məhəmməd ibn Əhməd Zəhəbi (vəfat - h. q. 848) "Təlxis əl-Müstədrək" kitabında Hakim Nişapuridən iqtibas edir. Orada deyilir:

"Əli ibn Əbu Talibin Kəbə evində dünyaya gəlməsini göstərən hədislər mütəvatirdir".




**5. Ləknahuvi**

Əllamə Ləknahuvi də "Mirat əl-mömin" kitabında Hakimdən iqtibas etmiş və bildirmişdir ki, Əmir əl-Mömininin (ə) Kəbədə dünyaya gəlişi mütəvatirdir və bu fəzilət yalnız o həzrətə (ə) məxsusdur.

**6. Dehləvi**

Şah Vəliyyüllah Əhməd ibn Əbd ər-Rəhim Dehləvi (vəfat - h. q. 1176) "İzalə əl-xifa" kitabında yazır:

Şübhəsiz, Fatimə bint Əsədin Əmir əl-Möminin Əli ibn Əbu Talibi Kəbə evində dünyaya gətirməsini göstərən hədislər mütəvatirdir. O, 13 rəcəb, cümə gecəsi, Fil ilindən ("Am ıl-fil") otuz il sonra Kəbə evində dünyaya göz açmışdır. Ondan öncə və ya ondan sonra heç bir zaman kimsə Kəbədə doğulmamışdır" .

**7. Məhəmməd Mübin**

Mövləvi Məhəmməd Mübin Ləknahuvi (vəfat - h. q. 1225) "Vəsilə ən-nicah" kitabında yazır:

"O kəramət qaynağının dünyaya gəlişi 13 rəcəb, cümə gecəsi, Fil ilindən ("Am əl-fil") otuz il sonra Kəbə evində baş vermişdir. Allah-Taala bu fəziləti ona məxsus etdi və Kəbəni bu şərəfə yetirdi".

**8. Miladxan**

Mövləvi Hadi Əli xan Miladxan sözügedən kitabın tərcüməsində yazır:

"Tarixçilər arasında yekdil rəy var ki, həzrət Əmir əl-Möminin (ə) Kəbənin içində dünyaya göz açmışdır. Bu şərəfin o həzrətə (ə) məxsus olmasında heç bir fikir ayrılığı yoxdur" .

**9. Kakuri**

Hafiz Məhəmməd Əli Heydər ibn Qələndər Kakuri (vəfat - h. q. 1350) "Əhsən əl-intixab" kitabında "Müstədraki-Hakim" və "İzalə əl-xifa" kitablarından iqtibas edərək bildirir ki, Əmir əl-Mömininin (ə) Kəbədə dünyaya gəlişi məsələsi mütəvatirdir.

**10. Gəcrati**

Böyük əhli-sünnə alimi Əllamə Seyid Gəcrati "əl-Elam bi əl-əlam məscid əl-Həram" kitabında inad üzündən Əmir əl-Mömininin (ə) dünyaya gəlişinin Əbu Qeys dağının ətəyində baş verdiyini yazan bəzi Əhli-beyt (ə) düşmənlərinə cavab olaraq yazır:

"İlahi, sən özün bilirsən ki, bu söz böyük böhtandır və onu Əhli-beyt (ə) düşmənləri quraşdırmışlar. Çünki mütəvatir hədislər onun Kəbənin içində dünyaya gəldiyini göstərir".

Tərcümə edən: **Maqsud Sayıl**


QAYNAQLAR:

Əş-Şeyx əs-Səduq, "əl-Əmali", səh. 114; "Məani əl-əxbar", səh. 62; İbn Şəhraşub, "Mənaqibi-Ali-Abu Talib, c. 2, səh. 173; İbn Fəttal, "Rəvzə əl-vaizin", səh. 76; əl-Əllamə əl-Məclisi, "Bihar əl-ənvar", c. 35, səh. 8; ət-Təbəri, "Bişarə əl-Mustəfa", səh. 8; əl-Məhəllati, "Rəyahin əş-şəriə", c. 3, səh. 6.

Əş-Şafei, "Kifayə ət-talib fi mənaqib fi İbn Əbu Talib", səh. 406; Şazan ibn Cəbraıl, "əl-Fəzail", səh. 56; "ər-Rəvzə", səh. 78; ; əl-Əllamə əl-Məclisi, "Bihar əl-ənvar", c. 35, səh. 12; əl-Əllamə əl-Əmini, "əl-Qədir", c. 7, səh. 347.

Əş-Şeyx əl-Müfid, "əl-İrşad", səh. 9; əş-Şeyx ət-Tusi", "Təhzib əl-əhkam", c. 2, səh. 7; əs-Seyid ər-Rəzi, "Xəsais əl-əimmə", səh. 39; İbn Tavus, "İqbal əl-əmal", səh. 655; İbn Şəhraşub, "Mənaqibi-Ali-Abu Talib, c. 2, səh. 78; İbn Səbbağ, "əl-Füsul əl-mühimmə", səh. 30; Xandəmir, "Həbib əs-Seyid", c. 1, səh. 52; Dehləvi, "İzalə əl-xifa"; əl-Məclisi, "Bihar əl-ənvar", c. 35, səh. 5 və 8;

Əl-Hakim ən-Nişapuri, "Müstədrək əs-Səhiheyn", c. 3, səh. 483.

Əş-Şafei, "Kifayə ət-talib fi mənaqib fi İbn Əbu Talib", səh. 407.

Əl-Alusi, "Şərh əl-Eyniyyə", səh. 15.

Əz-Zəhəbi, "Təlxis əl-Müstədrək", c. 3, səh. 483.

Əl-Ləknahuvi, "Mirat əl-mömin", səh. 21.

Əl-Dehləvi, "İzalə əl-xifa", c. 2, 251.

Məhəmməd Mübin, "Vəsilə ən-nicah", səh. 60.

Miladxan, "Vəsilə ən-nicat"ın tərcüməsi, səh. 62.

Kakuri, "Əhsən əl-intixab fi məişə seyyidina Əbu Turab", səh. 21.

Əl-Gəcrati, "əl-Elam bi əl-əlam məscid əl-Həram", səh. 72.




# MƏBƏS BAYRAMI

# 27 RƏCƏB HƏZRƏT MƏHƏMMƏDƏ PEYĞƏMBƏRLİK VERİLƏN GÜNDÜR

***``(Ya Məhəmməd!) De: Ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm. (O Allah ki,) göylərin və Yerin hökmü Onundur, Ondan başqa heç bir Tanrı yoxdur. O, dirildir və öldürür. Buna görə də, Allaha və Onun sözlərinə (ayələrinə, nazil etdiyi kitablarına) inanın, Peyğəmbərinə iman gətirin və Ona tabe olun ki, doğru yol tapa biləsiniz`` (``Əl-Ərəf``, 158).***

Məhəmməd Peyğəmbərin (s) xalq arasında nüfuzu getdikcə artırdı. Çox dərrakəli və gözəl sifətlərə malik Həzrət Mühəmməd Allahın əmriylə sonuncu və şərafətli Peyğəmbər olmalı idi. Məhəmmədə Adəmin dürüst əxlaqı, Asəfin dərin zəkası, İbrahimin tükənməz mərhəməti, İsmayılın bəlağətli nitqi, Yəqubun müəmmaları dərk etmə məharəti, Yusifin misilsiz gözəlliyi, Davudun təmənnasız xeyirxahlığı, Musanın sarsılmaz dəyanəti, İsanın inamı toplanmışdı. Bütün bunlardan xəbərdar olan dünyanın tanınmış şairləri Allah Rəsuluna çoxlu şeirlər, qəsidələr qoşmuşlar.

Miladi təqvimiylə 610-cu il rəcəb ayının 27-də Məhəmməd Peyğəmbərə vəhy gəldi (``Ənkəbut``, 48-49).Bu vəhy onun öz peyğəmbərliyini elan etməsindən ötrü idi.

Həzrət Məhəmmədə (s) peyğəmbərlik verilməsi günündən bəhs edən təfsirçilər göstərirlər ki, bu məşhur gündə Peyğəmbər özünün Həra dağındakı tənha mənzilində idi. Qəflətən Cəbrail mələk nazil olub deyir: ``Allah Təala buyurur ki, Sən öz peyğəmbərliyini elan edəsən və xalqı bütpərəstlikdən uzaqlaşdırıb bir olan Allaha inanmağa çağırasan``.

Bu sözlərdən həyəcana gəlmiş Peyğəmbərimiz bir anlıq cismani sarsıntıdan sonra Allahın qüdrət və əzəmətindən titrədi, sonra isə hərəkətsiz qaldı. Cəbrail ikinci dəfə ona Allahın əmrini təkrar etdi və tək buraxdı. Bu əhvalatdan sonra özünə gələn Peyğəmbər Həra dağından enərək evlərinə gəldi. Həyat yoldaşı Xədicə, Peyğəmbərin üzündə qeyri-adi bir şəfəqin saçdığını gördü və dərhal soruş-du: ``Ey mənim Alicənabım, bu nə nuri-şəfəqdir?``. Peyğəmbər cavab verdi: ``Qalxın və deyin ki, La ilahə iləllah, Məhəmmədən Rəsulullah`` (Allah birdir, Məhəmməd onun elçisidir). Bu sözlərdən sonra o, yatağına uzandı və Xədicədən xahiş etdi ki, onun üstünü örtsün. Xədicə onun üstünü yenicə örtmüşdü ki, qəflətən gözəgörünməyən bir kəsin amiranə səsi eşidildi: ``Ey bürünüb yatan, qalx və təkbir- ``Allahu Əkbər``,- de``.

Peyğəmbər tez ayağa qalxıb Kəbəyə getdi və orada ibadət etdi. Kəbəyə birinci gələn Xədicənin əmisi Vərqa oldu. Çox qoca olan Vərqa bir neçə gündən sonra vəfat etdi.

Peyğəmbərə ilk iman gətirən həyat yoldaşı xanım Xədiceyi-Kübra və əmisi oğlu Əli ibn Əbutalib idi.

Yeni əqidə ətraf yerlərə yayılmağa başlayanda müsəlmanların sayı 50-yə çatdı. Lakin müsəlmanlar hələ 3 il də öz etiqadlarını gizli saxlamalı oldular.

Bir gün Peyğəmbər Səfa dağına gedərək bütün nüfuzlu Qüreyşiləri yanına çağırdı. Dəvət olunanların hamısı gəlmişdi. Maraqlısı o idi ki, orada çağırılmayanlar da vardı. Bu zaman Həzrət Məhəmməd üzünü camaata tutub dedi: ``Siz bunu təsdiq edərsinizmi ki, mən həmişə düz danışan və sizə qarşı hər işdə təmənnasız olmuşam``. Camaat Peyğəmbərin fikrini təsdiq etdikdən sonra o, sözünə davam edərək dedi: ``İndi ki, belədir onda gərək siz həmişə mənə inanasınız. Mənim nəsihətlərimi yaxşı dinləyin və onlara əməl edin. Allahın qəzəbindən qorxun. Mən sizi haqq olan bir Allahı tanımağa çağırıram. Öz əllərinizlə düzəldib hazırladığınız bütlərə inanmaqdan, onlara ibadət etməkdən əl çəkin. İbrahimin və İsmayılın qəbul etdiyi və bizə vəsiyyət etdikləri etiqada qayıdın...``

Səfa dağına toplaşanlar Həzrət Məhəmmədin nitqini diqqətlə dinləyirdilər. Peyğəmbər nitqini təzəcə qurtarmışdı ki, əmisi Əbu Ləhəb irəli sıçrayaraq ``bizim baş bütümüz Sənə qənim olsun!`` deyib Allah Rəsulunu təhqir etdi və yerdən daş götürüb ona tərəf atdı. Bu hadisədən sonra oraya toplaşanlar dağılışdılar.

Peyğəmbər ordan Kəbəyə getdi və vaxtilə İsmayıl peyğəmbərin oturduğu daşın üzərində əyləşdi. Burada da Qüreyşləri yeni dinə gəlməyə, özünü də bir Peyğəmbər kimi tanımağa çağıran Həzrət Məhəmməd əlavə etdi ki, ``bu dünyada çox ölkələr dini qəbul edəcəklər ki, Axirətdə əzab-əziyyətdən azad olsunlar`` və bütün bütlərə lənət oxumağa başladı. Əhalinin çox hissəsi ona istehza edib dağılışdılar. Çox keçmədən Qüreyş ağsaqqalları toplaşıb məsələ ilə bağlı Əbu Talibə xəbər vermək qərarına gəldilər. Onlar hətta Əbu Talibin qardaşı oğlunu cəzalandırmayacağı təqdirdə, özləri onun barəsində tədbir görəcəklərini söylədi-lər. Əbu Talib isə onları sakitləşdirməyə çalışdı.

Artıq bu zaman Həzrət Məhəmmədə yeni-yeni vəhylər gəlirdi. Bu vəhylərlə Allah-Təala Məhəmmədə İslam dini haqqında qohum və tanışlara məlumat verməyi




tapşırırdı. Bildirirdi ki, bu dini qəbul edib itaət edənləri ``müsəlman`` adlandırsın.

Həzrət Peyğəmbər qohum tanışlardan 40 nəfəri evinə dəvət etdi. Sonra üzünü onlara tutub qətiyyətlə dedi: ``Mən sizə indiyə qədər heç kəsdə görmədiyiniz bir ecaz gətirmişəm. Əgər desəm ki, üstünüzə düşmən hücum çəkəcək, inanarsız?``. Qohumları onun sözlərini təsdiq etdikdən sonra sözünə belə davam etdi: ``...İnanın ki, Allah məni düz yola çəkmək, müqəddəs iradəsini sizə çatdırmaq, siz bəndələri Onun qəzəbindən qorxutmaq üçün göndərib. Kim qardaşım və davamçım olub mənimlə işləmək istəyir?`` Qohumlardan səs-səmir çıxmadı. Təkcə Məhəmmədin qardaşı oğlu gənc Əli ibn Əbu Talib ayağa qalxıb dedi: ``Ey Peyğəmbər! Mən səninlə olmağa hazıram. Əgər bir kimsə sənə xəta toxundurmaq istəsə, onu öldürərəm``. Həzrət Əli (ə) doğrudan da, hər zaman Məhəmmədə sadiq oldu, ən çətin anlarda belə onu tərk etmədi.

Həzrət Məhəmmədin peyğəmbərliyini təsdiq edən yeni-yeni ayələr nazil olmaqda idi. Bu ayələrdə o, şahid, nur, müjdəçi kimi tanınırdı. Artıq Məhəmməd Peyğəmbərin Ərəbistanın hər tərəfinə yayılmış yeni vəhy sözləri ilə maraqlananlar dəstə-dəstə Məkkəyə gəlirdilər. Lakin Qüreyşlər Həzrət Məhəmmədi təhqiedici ifadələrlə nüfuzdan salmağa çalışırdılar. Bəziləri isə Onu mal-dövlətlə ələ alıb fikrindən döndərmək istəyirdilər. Bütün cəhdlərin əbəsliyini gördükdə isə Məhəmməd Peyğəmbəri və ona iman gətirənləri təqib etməyə başladılar. Onlardan bir çoxuna zireh geyindirib qızmar günəş altında uzadır, döyür, işgəncə verirdilər.

Lakin bütün məhrumiyyətlərə, çətinliklərə baxmayaraq sonunda Allahın dini qalib gəldi və nəinki Ərəbistanda, bütün dünyada yayıldı...

# HZ. PEYĞƏMBƏRİN (S) YƏHUDİ QONŞUSUNUN HİDAYƏTİ

***İslam dini sevgi və ülfət dinidir. İslam Peyğəmbəri (s) isə İlahi rəhmət kimi bütün bəşər üçün məbus olmuşdur. İslam dini məntiq və ağıla əsasən məhəbbət və sevgi üzərində qurulmuşdur. Dinimiz kobudluq və münasib olmayan rəftarlardan bezardır.***

Qurani-Kərim Həzrət Peyğəmbərə (s) xitab edərək buyurur: “(Ya Muhəmməd!) Biz səni aləmdəkilər üçün yalnız bir rəhmət olaraq göndərmişik”. (“Ənbiya” 107).

Həzrət Peyğəmbərin (s) rəhmət kimi tanıtdığı din heç bir zaman kobud və sərt ola bilməz. Quran Peyğəmbərə (s) təvazökar olmağı əmr edir. “Öz təvazökarlıq qanadını möminlər(in üstün) ə sər”. (“Hicr” 88).

Başqa yerdə isə əfv etməyi və güzəşt etməyi əmr edir. “Əfv və güzəşt yolunu tut, yaxşı işlər görməyi əmr et və nadanlardan üz döndər”. (“Əraf” 199).




Tarixdə oxuyuruq ki, səhabələr Məkkə müşriklərinin bu qədər əziyyət və zülmündən sonra Həzrətə (s) deyirlər: “Ya Rəsulallah! Bu insanları nifrin et ki, onların şərrindən nicat tapaq”. Ancaq Həzrət (s) buyurur: “Mən nifrin etmək üçün göndərilməmişəm, rəhmət üçün göndərilmişəm”.

Həzrət Peyğəmbərin (s) həyat yolu bu idi – rəhmət. Həzrət (s) çox mehriban, mülayim və səbirli insan idi. Qonşusundan biri yəhudi idi və o, hər gün Həzrətin (s) başına kül tökərdi. Həzrət (s) də ona məhəl qoymaz və üst-başını çırpıb, yoluna davam edərdi. Bilirdi ki, əgər o, yolla getsə, yenə həmin iş başına gələcəkdir, ancaq Həzrət (s) yenə də yolunu dəyişdirmirdi. Bir gün həmin küçədən keçən zaman həmin kül tökən yəhudini görmür və təəccüblənir. Gülümsəyərək öz-özünə deyir: “Bizim dostumuz bu gün gəlməyibdir”. Deyirlər ki, xəstədir. Həzrət (s) buyurur ki, gərək onun ziyarətinə gedək. Yəhudi başının üstündə Peyğəmbəri (s) görən zaman, ona səmimiyyət və sadiq sevgisini hiss edir. Sanki uzun illər onunla dost idi. Ürəyində olan bütün kini aradan gedir və sevgiyə çevrilir.

Bəli, İslam dini belə bir dindir. Rəhbəri də bu qədər təvazökar, mehriban və səbirlidir. Bu cür dini kobud bir din kimi necə tanıtmaq olar ki?!

# QURAN və TİBB



**QURAN və GİGİYENA**

**Quranda bir çox məsələlərə toxunulmuşdur ki, gigiyenik baxımdan böyük əhəmiyyət daşıyır. Başqa sözlə desək, Quranda qeyd olunan bir çox dini hökmlər tibb və gigiyena baxımından çox faydalıdır.**

---

Zaman keçdikcə, təbabət inkişaf etdikcə, bu sirlər daha da aydınlaşır. Quranın önə çəkdiyi bu məsələlər İslamın erkən çağlarında adi ağılla, günün təbabəti ilə düşünülə bilmirdi. Bu Quranın elmi ecazkarlığı deməkdir.

Aşağıda qısa da olsa bəzi ayə və hökmləri, onların tibbi faydalarını diqqətinizə çatdırırıq.

**QİDALANMA GİGİYENASI**

TƏMİZ ƏRZAQ MƏHSULLARI “طيب” [TƏYYİB] Quranda oxuyuruq:

1. يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ كُلُواْ مِن طَيِّبَاتِ مَا رَزَقْنَاكُمْ

“Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin (təmiz və) halalından yeyin!” (“Bəqərə” surəsi, ayə: 172. “Bəqərə”, 75; “Maidə”, 4-5; “Əraf”, 157-160 və “Muminin”, 51 ayələri də həmin məzmundadır.)

2. يَا أَيُّهَا النَّاسُ كُلُواْ مِمَّا فِي الأَرْضِ حَلاَلاً طَيِّباً

“Ey insanlar! Yer üzündəki qidaların təmiz, halal olanlarını yeyin.” (“Bəqərə” surəsi, ayə: 168. “Maidə”, 8; “Ənfal”, 69; “Nəhl”, 114 ayələri də həmin məzmundadır.)

3. (Ya Peyğəmbərim!) De: “Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz (halal) ruziləri kim haram buyurmuşdur? (“Əraf” ” surəsi, ayə: 32. “Maidə”, 87 də eyni məzmundadır.)”

**QURANIN TƏKLİF ETDİYİ YEMƏK REJİMİ**

Quranda bir sıra ayələr insana necə deyərlər, özünəməxsus yemək rejimi (yemək pəhrizi) təklif edir. Bu Quran ayələrində bir neçə mərhələdə əks olunmuşdur.

**Birinci:** Təmiz (ürəyəyatan) yeməklər (ərzaq məhsulları) yeyin.

**İkinci:** Təmiz və halal yeməklər yeyin.

**Üçüncü:** Təmiz yeməkləri özünüzə haram etməyin (təmiz yeməkləri özlərinə haram edənləri bu işdən çəkindirin).

**Dördüncü:** Təmiz (ürəyəyatan) ərzaq məhsullarını tanıtdırır (ət, süd, bal və s.)

**Beşinci:** İyrənc (ikrah doğuran) qida məhsullarının insan üçün haram olduğunu bildirir. (“Əraf” surəsi, ayə: 157)

**Altıncı:** İyrənc (ikrah doğuran) ərzaq məhsullarının (qan, leş və s.) adını çəkir və haram olduğunu bildirir.

İnsan təbii olaraq bir çox ərzaq məhsullarını xoşlayır. İslam dini insanın fitrətinə uyğun olduğu üçün bizə təmiz (ürəyəyatan, ürəkoxşayan) yeməklərlə qidalanmağı əmr edir. Lakin bəzi cərəyanlar doğru yoldan sapındıqlarına görə bəzi təmiz (ürəyəyatan) qida məhsullarını yeməyə qadağa qoymuşlar. (Budizim qəti olaraq öz tərəfdarlarına ət yeməyi qadağan etmişdir. Hindlilər (hindu) inəyi müqəddəs hesab etdiklərindən onun ətini yemirlər. Digər məzhəblər də mövcuddur ki, öz tərəfdarlarına ümumilikdə heyvan ətini və heyvandan alınan digər məmulatların (yumurta, süd, pendir və s.) yeyilməsini ildə 40 və ya 90 gün qadağan edir (Doktor Əbd əl-Həmid, “Quranda təbabət”, səh.163))

**HÖKMLƏR**

İslamda insanın qidalanması ilə bağlı bir neçə başlıca hökm mövcuddur.

*1. Qida pak olmalıdır (yəni murdar olmamalıdır).*

*2. Qida təmiz olmalıdır (yəni iyrənc, ikrah doğuran olmamalıdır).*

*3. Yemək halal olmalıdır (yəni haram olmamalıdır).*

*4. İki növ qida haramdır:*

**Birinci:** Quranda və ya əhli-beytdən (ə) gələn rəvayətlərdə haram olduğu bildirilən qida məhsulları (qan və s.).

**İkinci:** Şəriətdə göstərilən yollarla əldə olunmayan qida məhsulları (sahibi olmadığımız və ya istifadə iznimiz olmadığı qida məhsulları).

**ELMİ SİRLƏR**

Murdar ərzaq məhsullarının haram edilməsinin səbəbləri haqqında ətraflı söhbət açacağıq (qan, leş və s.). Digər qadağalar haqqında elm adamlarının söyləmlərinə nəzər salaq:

Quran bir tərəfdən insanı ziyanlı və iyrənc ərzaq məhsullarını yeməkdən çəkindirir, digər tərəfdən isə pak və faydalı qidalarla qidalanmağı tövsiyə edir. İslam insanın psixi dincliyini, ictimai saflığını da unutmur və "halal" prinsipinin önə çəkir. Çünki insan öz alın təri ilə, halal zəhməti ilə qidalanarkən xüsusi zövq alır və böyük xoşbəxtlik hissi keçirir. ("Quranda təbabət", səh.163)

**YEKUN**

Burada bir neçə məqama diqqət yetirmək zəruridir:

1. Quranın təmiz və halal qida məhsulları haqqındakı tövsiyələri insanın cisim və ruhunda gigiyenik iz buraxmışdır. Bu, Quranın bəşəriyyətə ən böyük xidmətidir.

2. Təmiz və pak qida məhsullarına meyl insanın təbiətindən qaynaqlandığı üçün İslamın bu növ hökmləri "bələdçilik" xarakteri daşıyır. Belə olan halda bunu elmi möcüzə hesab etmək olmaz. Əlbəttə, qida məhsullarının halal olması ilə bağlı bəzi məsələlər var ki, ilahi bələdçilik olmadan insan ağılı onları mənimsəyə bilməz.

3. Qida məhsullarının "təmiz" və ya "halal" olması ilə bağlı söylənilənlər məlum hökmlərin səbəblərinin yalnız kiçik bir hissəsini aydınlaşdırır. Çox güman ki, bu göstərişlərin arxasında digər səbəblər də dayanır.

Kitabın adı: Quranın elmi ecazkarlığı

Tərcümə edən: M. Sayıl

Ardı var ...

# HƏZRƏT ZEYNƏB (Ə) MÜƏLLİMSİZ ALİMƏ

**Hicrətin 6-cı ilində Əmirəl-mömininin İmam Əlinin (ə) evi bir körpənin dünyaya gəlişi ilə nurlandı. Bu həmin körpə idi ki, sonradan Fatimə (s.ə) və Əli (ə) tərbiyəsini tamamilə özündə əks etdirəcəkdi.**

**O xanım (ə) gözlərini dünyaya açdığı ilk gündən babası Peyğəmbər (s) onu əzizləyərək barəsində belə buyurmuşdu:"Hamının bu qıza hörmətlə yanaşmasını tövsiyə edirəm, çünki onun Allah yanında məqamı, həzrət Xədicənin (s) məqamı kimidir".**

Ömrünün ilk 5-6 ilini babasıyla birgə keçirməsinə baxmayaraq, həzrət Zeynəb (ə) həzrət Yəhya (ə) kimi uşaqlıqdan qeyri-adi zəkaya sahib olduğundan, alimlər bu kiçik müddəti onun Peyğəmbər səhabəsi sayılması üçün kifayət hesab etmişlər. Belə ki, həzrət Peyğəmbərdən (s) olan bəzi hədislər həzrət Zeynəbə (ə) istinadən nəql edilib.

Həzrət Zeynəbin (ə) çoxlu ləqəbləri olmuşdur. O həzrətin (ə) ləqəblərindən biri rəvayətlərdə "Əqilə" və ya "Əqileyi Bəni-Haşim" olaraq gəlmişdir. "Əqilə" dəyərli və müdrik, hörmətli qadın deməkdir.

Bu böyük xanım hələ altı yaşında olanda anası Zəhranın (ə) Fədək haqqındakı xütbəsini əzbərləmişdi. Kufənin mühüm şəxsiyyətlərindən olan Bəşir ibn Xuzeym deyir: "Allaha and olsun ki, Zeynəbdən başqa başdan ayağa həya nümunəsi olan və nitq söyləyə biləni görmədim. Sanki Əlinin (ə) dilindən nitq söyləyirdi. Danışmağı o İmamdan (ə) öyrənmişdi"

Bu dəyərli xanım böyük ictimai və elmi məqama malik idi. Həyat yoldaşı Abdullah da onu "Ey Mürtəzanın qızı, ey Bəni-Haşimin müdrik qadını" deyə çağırardı.

Rəvayətlərə əsasən, bu parlaq zəkalı qız, atasına Quran oxuyar və ondan ayələrin təfsirini soruşardı. "Əhl-Əta" ailəsində böyüyən bu xanım qanıyla, canıyla Qurana bağlanmaqdan əlavə, onu öyrənər yeri gəldikdə Quran ayələrini həyatında yaşadardı. Belə rəftar "İmamət evinin zinəti"nin körpəlik illərindən son günlərinədək müşahidə edilir.

Həzrət Zeynəb (ə) atası İmam Əli (ə) Mədinədə olduğu müddətdə həyat yoldaşı Abdullah ibn Cəfərlə birgə Mədinədə yaşayırdı. İmam Əli (ə) İslam hökümətinin paytaxtını Kufəyə keçirdikdən sonra onlar da Kufəyə köçdülər. Kufə qadınları həzrət Zeynəbdən (ə) onlara təfsir dərsləri deməsini xahiş etmiş, o da ilahi "Lədunni" elmdən onlara pay ayırıb, onları İslam mərifəti ilə nurlandırdı. Həzrət Zeynəb (ə) Kufədə qadınların təlim tərbiyəsi ilə məşğul olurdu.

Həzrət Zeynəb (ə) Kufə bazarında alovlu və geniş məzmunlu nitq söylədikdə imam Səccad (ə) həzrət Zeynəbin (ə) elmi səviyyəsini təsdiq edərək buyurdu: "Şükürlər olsun ki, sən müəllimsiz aliməsən". ("Rəyahinuş-şəriə", c.3, səh. 61.)

İmam Səccadın (ə) bu mübarək kəlamı o həzrətin ilahi biliyindən xəbər verir.

Həzrət Zeynəbın (ə) Kufə və Şamda Yezid və tərəfdarlarını rüsvay edən qızğın və gözəl nitqi ən yüksək fəsahət və bəlağət nümunəsi idi. İslamın böyük alimlərindən biri şəhid Mürtəza Mütəhhəri bu haqda yazır: "Həzrət Zeynəbin (ə) Yezidin məclisindəki çıxışı dünyanın misilsiz çıxışlarındandır". ("Fəlsəfeyi əxlaq", səh. 59.)

İbn Əsir isə yazır: "Həzrət Zeynəb xalq arasında fəsahət, bəlağət, zöhd, ibadət, fəzilət, şücaət və səxavətdə atası Əli və anası Fatiməyə ən çox oxşayan idi".

Bəli, "mükəmməllik"-səlistlik və bəlağət, tutarlı əsaslarla danışmaq, zəka, siyasət, fərasət, mücahid və mübarizlik, şücaət və yəqin, izzət və şərəf, isar və fədakarlıq, səxavət, təslimlik, razılıq, ibadət, əxlaq, təqva, həya, iffət, tərbiyə, şəfqət və mərhəmət, vilayətə sevgi, İmamətdə müdafiə və onun böyük elmi məqamı, İmam Sadiq (ə) buyurduğu kimi; "Bütün bu dəyərlərin başında elm dayanır." hədisinin mənası həzrət Zeynəbin (ə) ən bariz sifətlərindən biridir ki, ağılı heyran qoyur.




# “İNTİZAR” MƏFHUMU I




**“İntizar”, adətən, insanın mövcud vəziyyətdən narahat olaraq yaxşı vəziyyətin yaranması ümidilə gözlədiyi hala deyilir. Məsələn, sağalmaq intizarında olan xəstə mövcud vəziyyətdən, yaxud övladının səfərdən qayıtması intizarını çəkən ana övladının ayrılığından narahatdır və hər ikisi bu vəziyyətin sona çatmasını gözləyir.**

Deməк, dünyanın böyük islahatçısının, imam Mehdinin (ə) haqq-ədalətli hökumətinin intizarı iki prinsip üzərində qurulmuşdur: “inkar” və “isbat” prinsipləri. “İnkar” dedikdə, mövcud vəziyyətdən narahatçılıq hissi, “isbat” dedikdə isə vəziyyətin yaxşılaşmasının intizarı nəzərdə tutulur. Bu iki prinsipin inkişafı iki mütənasib fikrin formalaşmasına səbəb olacaqdır: 1. zülm və haqsızlığa qarşı ikrah, hətta onlarla mübarizə hissi; 2. vahid ədalətli bir hökumətin təşkili üçün cismi və ruhi, maddi və mənəvi hazırlıq hissi. Göründüyü kimi, bu hisslərin hər ikisi müsbət xarakterlidir.

İNTİZAR – FİTRİ HƏQİQƏT

İntizar xam xəyallardan yox, insanın varlığının dərinliyindən qalxır. Daha aydın desək, böyük xilaskarın zühuruna iman “agahlığa eşq”, “gözəlliyə eşq” və “yaxşılığa eşq”in tərkib hissəsidir. Bildiyimiz kimi, “təkamülə eşq” insan varlığını bürüyən əbədi bir şölədir. O, daha çox bilmək, gözəllikləri daha çox görmək, yaxşılıqlardan daha çox bəhrələnmək, bir sözlə, hər bir tərəqqiyə sahib olmaq istəyir. İnsanın təkamül və tərəqqiyə, elm və gözəlliyə, yaxşılıq və ədalətə bağlılığı həmişəyaşar duyğudur və böyük xilaskarın zühurunun intizarı da onun zirvəsidir!

Demək, həyatda məğlubiyyət və böhran bu hissdən ayrıldığımız zaman baş verir. Bədənin üzvləri birgə inkişaf etdiyi kimi, insanın ruhi-psixoloji xüsusiyyətləri də belədir və onların hər birinin təsiri inkaredilməzdir. Məsələn, hər bir insanda “təhlükəli amillərdən qorxu hissi” onun təhlükələrdən qorunmasında qalxan rolunu oynayır və ya mənafeyini təhlükədə gördüyü zaman “qəzəb”lənməsi müdafiə mexanizmi üçün bir vasitədir. Odur ki, təkamül, sülh və ədalətə eşq-məhəbbət də bu böyük məqsəd uğrunda bir vasitə, insanın varlıq çarxlarını hərəkətə gətirən, onu sülh və ədalət dolu cahana çatdıran güclü motordur. Demək, cisim və ruhda mövcud olan hiss və mexanizmlər varlıq aləminin məcmusu ilə uzlaşmalıdır. Çünki bütün varlıq aləmi bir-birinə bağlı vahid məcmuədir və bizim varlığımız da ondan ayrı deyil. İnsanların dünyanı haqq-ədalət, sülh və yaxşılıqla dolduran böyük xilaskarın intizarında olması ictimai təkamülün zirvəsinə doğru həqiqi təmayüldür.

Bütün ayinlərdə belə bir etiqadın varlığı bu həqiqətə bir nişanədir. Çünki yalnız fitri məsələlər bu qədər ümumi xarakter daşıya bilər. Nəhayət, dünya böyük xilaskarın sülh və ədalət bayrağı altına toplaşacaq.

İNTİZARIN FƏLSƏFƏSİ

Mövzu ilə bağlı aşağıdakı suallar hər bir şəxsi maraqlandıra bilər:

Bəşəriyyətin gələcəyindən danışmağın bugünkü günümüzə nə kimi faydası ola bilər? Bu gün minlərlə çətinlik və problemlər içərisində çabalayırıqsa, onların həlli üzərində düşünməliyik. Bizim sabahla nə işimiz var? Gələcək, axır kı, gələcək, istər yaxşı olsun, istərsə də pis! Həmin vaxta qədər yaşayanlar da onun nemətlərindən bəhrələnəcək və ölüb gedənlərə də Allah rəhmət etsin! Hər halda, bu məsələ hələ ki, “nisyə”dir və bizim bugünkü həyatımızda müsbət və qurucu təsiri yoxdur!

* * *

Qeyd etməliyik ki, bu sayaq sözləri hadisələri səthi baxışla izləyənlər, bu günü dünən və sabahdan ayrı və dünyanın ayrı-ayrı üzvlərdən mürəkkəb olduğunu təsəvvür edənlər dillərinə gətirirlər!

Lakin bu günün hadisələrinin keçmişin və gələcəyin də bu günün nəticələri olduğuna diqqət yetirdikdə, məlum olur ki, istər-istəməz keçmiş və gələcəyimiz bizə əhəmiyyətli olacaq. Halbuki bəziləri intizardakı müsbət yönləri düzgün anlamadıqlarından onları tənbəllik və süstlüklə səhv salırlar. Onların nəzərincə, aydın gələcəyə iman, adətən, yoxsul təbəqələrin arzularında məzhəbi formada özünü büruzə verən bir anlamdır. Lakin elə dardüşüncəlilər də var ki, “biz zühur intizarçılarıyıq” – adı ilə bütün məsuliyyətlərdən boyun qaçırır, hər bir vəzifəni intizarın üstünə atırlar.

Burada hər iki tərəfin yanlış düşüncələrini aradan qaldırmaq məqsədilə diqqətinizi bir neçə mövzuya cəlb edirik:

YANLIŞ MÜHAKİMƏLƏR

Adətən, şərqşünaslar böyük xilaskarın varlığına imanı müsəlmanların tarixindəki qaranlıq dövranlarla əlaqələndirir və bunu təbii reaksiya bilirlər. Bəzi sadəlövh müsəlman və şərq tədqiqatçıları da onların təfəkkür tərzindən təsirlənərək yəhudi və məsihilərin etiqadlarından qaynaqlandığını təsəvvür edirlər. Bəzi materialist sosioloqlar isə "intizar" anlamını yoxsul təbəqələrdə sinfi ayrıseçkilik və imperializmə qarşı baş qaldıran kütləvi təbii-ictimai zərurət bilirlər.

Bütün bunlarla belə, zühurun intizarına etiqad fitri bir məsələ kimi, İslamın köklü əqidələrindən sayılır. Odur ki, buna əks hər hansı fikir və nəzər, ya məhdud mütaliənin, ya da maddi təfəkkür tərzinin nəticəsidir. Məsələn, şərqşünas Margli Yut imam Mehdi (ə) ilə bağlı hədisləri inkar edərək yazı: "Hədislərin necə təfsir edilməsindən asılı olmayaraq əlimizdə Mühəmməd peyğəmbərindən İslamın gələcəyində rol oynaya biləcək Mehdi adlı bir şəxsin zühuruna dair qənaətbəxş bir dəlil yoxdur. Bunu biz onun vəfatından sonra yaranan daxili müharibələr və İslam aləmində baş qaldıran ixtilaf və təfriqələrə son qoymaq məqsədilə həzrət İsa Məsihin zühur və qayıdışının intizarında olan yəhudi və məsihilərdən iqtibas edilən bir anlam hesab etməliyik."

Deməliyik ki, Margli Yut kimilərinə minlərlə hədis və kitab da kifayət etməyəcək və onları qane etməyə də ehtiyac yoxdur. Amma "Tarixin müqəddiməsi" kitabında imam Mehdi (ə) ilə bağlı hədislərə şübhə ilə yanaşan İbn Xəldun və onun kimi bir neçə nəfər istisna olmaqla, müsəlman alim və tədqiqatçıları Peyğəmbərin (s) zühurla bağlı hədislərini yekdillə qəbul edir və yalnız cüzi məsələlərdə fikir ayrılığı görünür.

İNTİZARIN MÜSBƏT TƏSİRLƏRİ

Görəsən, imam Mehdinin (ə) zühuruna inamın (zülm və haqsızlığın köklərini məhv edən dünyamiqyaslı proqramları nəzərə almaqla) nə kimi müsbət və tərbiyəvi təsirləri vardır? Görəsən, bu inam insanı qafil və hər şey müqabilində təslim olmağa vadar etmirmi? Görəsən, bu əqidə müsbət mənada bir növ fərdi və ictimai qiyama dəvətdirmi? İnsanı tərəqqiyə doğru yönəldərək onda məsuliyyət hissi yaratmırmı? Bir sözlə, bu inam viranedicidir, yoxsa islahedici və qurucu?

Bu sualları araşdırmazdan öncə, müsbət fikir və ideyaların həmişə nadanların, yaxud mənfəətpərəstlərin əli ilə təhrifə məruz qalaraq əsl məqsəddən yayındırıldığını bilməliyik. Tarixdə belə nümunələr həddən artıq çoxdur və "intizar" da həmin təsirlərdən amanda qalmamışdır. Belə məsələlərdə təhrif və xətadan amanda qalmaq məqsədilə, necə deyərlər, suyu bulağın gözündən götürmək, eyni zamanda, "intizar"ı düzgün anlamaq üçün də İslamın təməl prinsiplərinə müraciət etmək və onu rəvayətlərin dili ilə araşdırmaq lazımdır.

Aşağıdakı rəvayətlər bu məsələyə aydınlıq gətirir:

1. Bir nəfər imam Sadiqdən (ə) soruşdu: "Haqq hökumətin intizarını çəkdiyi halda dünyadan gedən şəxs haqqında nəzəriniz nədir?"

İmam buyurdu: "O, Qaimin xeyməsində (ordusunda) hazır olan şəxs kimidir. (Həzrət bir az sükut etdikdən sonra buyurdu:) O, İslam peyğəmbəri ilə birgə mübarizələrdə iştirak edən şəxs kimidir!"1 (Buna bənzər rəvayətlər çoxdur.)

2. Bəzi rəvayətlərdə deyilir: "O, Allah yolunda qılınc çəkən şəxs kimidir!"

3. "O, Peyğəmbərin hüzurunda qılıncla düşmən başına zərbə endirən şəxs kimidir!"

4. "O, Qaimin bayrağı altında olan şəxs kimidir!"

5. "O, Peyğəmbərin hüzurunda cihad edən şəxs kimidir!"

6. "O, Peyğəmbərlə şəhid olan şəxs kimidir!"

İmam Mehdinin (ə) zühurunun intizarı ilə əlaqədar bu təşbeh və bənzətmələr düşmənlə mübarizəyə və cihada daha artıq şövq yaradır.

7. Bir çox rəvayətlərdə isə belə bir hökumətin intizarını çəkmək ən böyük və ən fəzilətli ibadət sayılmışdır.

Bunları biz həm Peyğəmbəri-Əkrəmdən (s), həm də imam Əlidən (ə) nəql olunan hədislərdə görə bilərik. Bir hədisdə Peyğəmbəri-Əkrəm (s) belə buyurmuşdur:

"Mənim ümmətimin ən fəzilətli əməli Allahın vəd etdiyi zühurun intizarını çəkməkdir!"2

O həzrət başqa bir hədisdə belə buyurmuşdur:

"Ən fəzilətli əməl zühur intizarı çəkməkdir!"3

Buradakı "intizar" sözü istər ümumi, istərsə də xüsusi mənada olsun, dünyanın böyük islahatçısının zühur intizarını bildirməklə yanaşı, onun böyük əhəmiyyət daşıdığını göstərir.

Qeyd olunanlar böyük bir cihadla yanaşıdır. Bunu nəzərə aldıqda, yekun nəticə üçün zəmin yaranır.

"İntizar"ın bu məfhumuna diqqət yetirməklə imam Mehdi (ə) qiyamının intizarını çəkənlərin böyük savaba nail olacağı məlum olur. Beləliklə, nə üçün rəvayətlərdə həqiqi intizar çəkənlərin imam Mehdinin (ə) xeyməsində və bayrağı altında olanlarla bir, yaxud Allah yolunda cihad edən və şəhid olanlar sırasında sayıldığını aydın şəkildə başa düşürük.

Görəsən, bunlar insanların hazırlıq, haqq-ədalət yolunda mübarizə və yüksək dərəcələrə dəvəti deyilmi? Məlumdur ki, Allah yolunda cihad edənlər fədakarlıq dərəcəsinə görə fərqləndiyi kimi, intizar hazırlığının da müxtəlif dərəcələri vardır. Bu baxımdan, onların biri digərinə bənzəyir, yəni hər ikisi cihad sayılır və hazırlıq tələb edir. Belə bir dövlətin bayrağı altda durmağa layiq olan şəxs məsələyə əhəmiyyətsiz yanaşa bilməz. Ora yalnız ləyaqətli şəxslərin yeridir. Eyni zamanda, əlinə silah götürüb bu inqilabın düşmənləri ilə mübarizə aparmaq istəyən şəxsin ruhi, cismani və ideoloji cəhətdən tam hazırlığı olmalıdır.

Tərcümə edən: Rza Şükürlü

"İmam Məhdinin (əc.f) cahanşümul hakimiyyəti" kitabından

# İlahi sevgidən məhrum
# İSRAFÇIL

***Qurani-Kərimdə təkid olunan mövzulardan biri də israfdır. "İsraf" sözü müxtəlif ibarələrlə 23 ayədə işlənmişdir və çox geniş məfhum daşıyır. Sadə sözlə desək, israf həddi aşmaq, əndazədən çıxmaq və normadan kənarlaşmaq anlamındadır. Onun kökünə diqqət yetirdikdə, incə və zərif məqamlarla rastlaşırıq. "İsraf" "sürəfə" sözündən alınmış və ərəb dilində ağacqurduna deyilir. İçində qurd olan ağac kənardan nə qədər təravətli və ürəkaçan görünsə də, içi bir o qədər çürük və xarabdır. Zaman keçdikcə, onun fəsadları üzə çıxır və günbəgün onun solğunluğu va təravətinin aradan qalxmasına səbəb olur. Cəmiyyət arasında baş verən israfçılıq da həmin cəmiyyətin solğunluğu və süqutu ilə nəticələnəcəkdir. Beləliklə, hər bir sahədə normadan kənara çıxmaq, həddi aşmaq və cəmiyyətdə fəsadın yayılmasına səbəb olan hər bir iş israf hesab olunur. Amma bu söz insanlar arasında daha çox iqtisadi məsələlərdə işləndiyi üçün onun digər mənaları barədə ya az danışılıb, ya da ümumiyyətlə danışılmayıb. Halbuki müqəddəs Quran ədəbiyyatında israf sözü bir çox sahələri əhatə edir ki, burada onlardan bəzisini şərh etməyi lazım bilirik:***

**1. İNAM VƏ ƏQİDƏDƏ İSRAF**

Bəzi ayələrdə şirk, küfr, ilahi peyğəmbərləri danmaq, tövhid inancından sapmaq, ilahi ayələri inkar etmək və digər dini mövzularda həqiqətlə əlaqəsi olmayan iddialar irəli sürmək israf olaraq göstərilir. Quran nöqteyi-nəzərindən varlığa bu cür baxış normadan çıxmaq və həddi aşmaq hesab olunur. Elə bu səbəbdən də, bu xislətə sahib olan insanların müxtəlif ayələrdə məzəmmət olunduğunu müşahidə edirik. Misal üçün, "Qafir" surəsinin 34-cü ayəsində nübuvvəti inkar edənlərin israfçıl olduğu buyurulur:

".....Allah (küfr etməklə) həddi aşan, şəkk içində olan kimsəni belə yoldan azdırar!"

"Yasin" surəsinin 19-cu ayəsində Allah tərəfindən göndərilən iki peyğəmbər onlarla müxalif olan, onları qətl və işgəncə ilə hədələyən tayfanı israfcıl adlandırır:

"...Xeyr, siz (günah etməkdə) həddi aşan bir camaatsınız!"

Qurani-Kərimdə həddini aşaraq allahlıq iddiası edən Firon israfçıl adlandırılır. "Yunus" surəsinin 83-cü ayəsində Fironun etiqadi baxımdan israfçıl olduğu haqda belə buyurulur:

"...Firon o yerdə hakim idi. O, (küfr və azğınlıq etməkdə) həddi aşmışdı."

Şübhəsiz, uyğun ayələrdə işlənən israf sözündə, əsasən, etiqadi azğınlıq nəzərdə tutulur.

**2. ƏXLAQİ İSRAFÇILIQ**

Günaha aludə və maddiyyata qərq olaraq Allahla əlaqəni kəsən insanın haqq yoldan çıxması danılmaz bir məsələdir. Odur ki, hər bir kəsin Allaha qarşı üsyankarlığı və günaha batmaqla özünə pislik etməsi də israfdır. Günaha qərq olan insan öz nəfsinə zülm etməklə yanaşı,



ilahi hədləri aşır və onun sərhədlərini pozur. "Zümər" surəsinin 53-cü ayəsində belə buyurulur:

"(Ya Peyğəmbər! Mənim bəndələrimə) de: "Ey Mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidinizi üzməyin. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!"

"Yunus" surəsinin 12-ci ayəsində çirkin əməllərinin gözəl olduğunu düşünənlər də israfçıl adlandırılırlar. Həmin ayədə buyurulur:

"...İsraf edib həddi aşanlara etdikləri əməllər beləcə zinətləndirilmişdir."

Həmçinin cinsi sahədə baş qaldırmış inhiraf və azğınlıqlar da Qurani-Kərimdə israf adlanır. "Əraf" surəsinin 81-ci ayəsində qadınlardan üz çevirib, öz həmcinslərinə rəğbət göstərən Lut peyğəmbərin qövmü israfçıl adlandırılır və buyurulur:

"Siz qadınları atıb şəhvətlə kişilərin üstünə gəlirsiniz. Siz, doğrudan da, həddi aşmış bir tayfasınız!"

**3. İCTİMAİ İSRAFÇILIQ**




Cəmiyyətdə özbaşınalıq, zülm, haqsızlıq, hegemonluq, istismar və bu kimi yer üzündə baş verən fəsadlar, əslində, böyük israfçılıq və israfçılığın ən bariz nümunələridir. Qurani-Kərimin "Maidə" surəsinin 30-31-ci ayələrində yer üzünün ilk fəsad törədən insanı olan Qabilin öz qardaşı Habili qətlə yetirməsi haqda söz açıldıqdan sonra, həmin surənin 32-ci ayəsində İsrail övladlarını günahsız insanların qanını tökməkdən və yer üzündə fəsad törətməkdən çəkindirilir və onların bu kimi işləri, başqa sözlə, ictimai azğınlıqları israfçılıq adlandırılır. Həmin ayədə buyurulur:

"Buna görə də, İsrail oğullarına (Tövratda) yazıb hökm etdik ki, hər kəs bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur. Bizim peyğəmbərlərimiz onlara (İsrail övladlarına) açıq möcüzələr gətirmişdilər. Bundan (bu möcüzələrdən) sonra da onların bir çoxu yer üzündə (küfr, qətl və cinayət etməklə) həddi aşdılar."

Ümumiyyətlə, Quran məntiqinə əsasən, yer üzündə fəsadın yaranmasına səbəb olan hər bir kəs israfcıl adlanır. "Şüəra" surəsinin 151-152-ci ayələrində yer üzündə fəsad törədən insanların israfçıl olduğu buyurulur və onlara itaət qadağan edilir:

"(Günah etməklə) həddi aşanların əmrinə tabe olmayın! O kəslər ki, yer üzündə fitnə-fəsad törədər və (pis işlərdən, günah əməllərdən əl çəkib özlərini) islah etməzlər!"

**4. İQTİSADİ İSRAFÇILIQ**

Bəzi ayələrdə də iqtisadi israfçılıqdan söz açılır. Belə ki, həmin ayələrdə maddi imkanlardan düzgün istifadə etməmək və yaxud istifadə zamanı normaları aşmaq israfçılıq hesab olunur. Misal olaraq, "Əraf" surəsinin 31-ci ayəsində belə buyurulur:

"Ey Adəm oğulları! Hər bir ibadət vaxtı gözəl libaslarınızı geyinin, yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz!"

Qeyd olunan ayələrə diqqət yetirdikdə, israfçılığın ağır nəticələrinin şahidi oluruq. Nəticə etibarilə burada ən önəmli məsələ, israfçıl insanın Allah sevgisindən məhrum olmasıdır. İlahi sevgidən uzaq düşən insan isə böyük Yaradanın qəzəbinə tuş gəlməyə məhkumdur. Gəlin varlığın ən şirin nemәti olan ilahi sevgidən özümüzü məhrum etməyək!

Qədir Məmmədov

# NİKBİNLİK

## HÜSNÜ-ZƏNNİN İNSANA VERDİYİ 10 BƏRƏKƏT

***Hüsnü-zənn (nikbinlik) cəmiyyətdə rabitələrə müsbət təsir qoyduğu kimi, özü ilə çox sayda bərəkət gətirir. İslam dini istəyir ki, cəmiyyətdə kamil şəkildə əmin-amanlıq təmin olunsun. Yəni, həm əməl baxımından və həm də fikir və düşüncə baxımından başqaları tərəfindən qəbul olunsunlar.***

Hüsnü-zənnin gətirdiyi bərəkətlərlə tanış olaq:

1. Məhəbbəti cəlb etmək. İmam Əli (ə) buyurur: "İnsanlara qarşı nikbin olmaq – onların dostluq və məhəbbətinə səbəb olar".

2. Rahatlıq və əmin-amanlıq. Hüsnü-zənn insana ruhi və psixoloji rahatlıq və hüzur gətirir. İmam Əli (ə) buyurur: "Nikbinlik insanın qəmini azaldar və günahın ağırlığından xilas edər".

3. Qəlbin pak və səfalı olması. Həzrət Peyğəmbər (s) buyurur: "Mömin qardaşlarınıza gümanlarınızı yaxşı edin. Çünki möminə hüsnü-zənn etmək – qəlbin saflığına və paklığına səbəb olar".

4. Xəstəliklərdən amanda qalmaq. Mütəxəssislərin nəzərinə görə, o kəslər ki, həyata nikbin baxışlarla baxırlar, onlar həm sağlam olur və həm də uzun ömür yaşayırlar.

5. Günahdan çəkinmək. İmam Əli (ə) buyurur: "Xoşgümanlı olmaq günah ardıcılı olana nicat verər".

6. Ruhu sağlam olar. Nikbin insanlar başqalarının rəftar və sözlərini həmişə yaxşı tərəfə yozduqları üçün, çox az iztiraba və depressiyaya düçar olurlar.

7. Niyyətin yaxşı olması. İmam Əli (ə) buyurur: "O kəs ki, xoşgüman olar – niyyəti yaxşı olacaqdır".

8. Çox rahat insandır. İmam Əli (ə) buyurur: "O kəs ki, xoş gümanlı olar – asanlıq edər". Yəni, bu şəxs bir çox həssaslıqdan və çətinlik etməkdən çəkinən insandır.

9. Bir-birinə etimad etmək. Cəmiyyətdə ən mühüm amillərdən biri də bir-birinə etimad etməkdir. Hüsnü-zənn bu etimadı gücləndirər.

10. Etimadı cəlb etmək. Etimadı cəlb etmək – həyatda lazımlı və zəruridir. Etimadın yaranması üçün isə hüsnü-zənn mühüm amillərdəndir.

Allah Təala bizləri hüsnü-zənn əhlindən qərar versin!



# POZİTİV OLUN Kİ, POZİTİVLƏ QARŞILAŞASINIZ!

## Allah-Taala “ər-Rəhman” surəsinin 60-cı ayəsində belə buyurur: “Yaxşılığın əvəzi ancaq yaxşılıq deyildirmi?”

Allahın yaratdığı kainatın sirləri öz elmi izahını tapdıqca, insanı daha böyük heyrət bürüyür. Bu gün bütün bəşəriyyətin problem içində olması, insanların heç cür xoşbəxtlik tapa bilməməsi və daim sıxıntı içində olması onların öz təbiətlərinin qanunlarının əksinə davranması, Yaradanın yaranmışlar üçün müəyyən etdiyi qanunları tapdalamasının nəticəsidir. Günah, fəsad və çirkinliklərin qarşısı alınmadıqca, hətta günah etməyən insan belə, ruhi və mənəvi rahatlığa nail ola bilməyəcək. Sədi “Gülüstan” əsərində yazır:

Bir bədən üzvüdür bu bəni-adəm.  
Eyni bir cövhərdən yaranmış aləm.  
Bir üzvü dərdlərə salsa ruzigar,  
Tutmaz başqa üzvü yerində qərar.  
Özgənin dərdinə əgər qalmasan,  
Yaraşmaz adına deyilsin insan.

Əslində, deyərdim, nəinki bəni-adəm, bütün kainat bir bədən üzvüdür. Qənaətimin elmi izahı da var təbii ki.

Məşhur Avstriya fiziki Pauli Volfqanq kəşf etdiyi “Pauli prinsipi” adlanan yeni qanuna görə 1945-ci ildə fizika üzrə Nobel mükafatına layiq görülmüşdür. Enişteyn də bu qanunu bəyənmişdir. Pauli yazır:

Dünyada hər şeyin özünəməxsus vibrasiyası var. Bütün elektronlar üç xüsusiyyətə malikdir: enerji səviyyəsi, fırlanma və orbit. Fiziklər elektronların kvant ədədini bu üç xüsusiyyət əsasında hesablayırlar. Pauli bildirir ki, dünyada kvant ədədi eyni olan iki elektron yoxdur. O bu fikrini belə izah dir: Bir alma götürürük. Onu təşkil edən milyardlarla elektronun arasından birini seçirik. Fərz edək ki, həmin elektorunun adını “Erik”qoyuruq. Əslində, həmin elektorunun kvant ədədi çox-çox uzundur. Ancaq məsələni sadələşdirmək üçün şərti olaraq həmin ədəd üçün 23 rəqəmini müəyyən edirik. Pauli sübut edir ki, təkcə başqa almalarda deyil, kainatın heç bir yerində, hətta qalaktikadakı planetlərdə də elə bir şey tapa bilməzsən ki, kvant ədədi 23 olan elektrona malik olsun. İndi bir dəsmal götürüb almanı sürtək. Həmin sürtünmədən enerji hasil olacaq. Hasil olmuş enerji Erikin kvant ədədini artırıb, məsələn, 26-ya çatdıracaq. Elə həmin andaca kainatın harasındasa kvant ədədi 26 olan yeganə elektron avtomatik olaraq dəyişikliyə məruz qalacaq. Beləcə, kainat öz tarazlığını qorumaq üçün tam bir dəyişikliyə məruz qalacaq. Tutaq ki, 23 rəqəmi 26 olduqda avtomatik olaraq dünyanın harasında 26 rəqəmli elektron varsa, çevrilib olacaq 28 və beləcə, dəyişiklik silsiləsi davam edəcək. Pauli ona Nobel mükafatı qazandıran bu qanununa əsaslanaraq yazır:




-Əgər hər bir elektronun özünəməxsus vibrasiyası varsa, deməli, dünyadakı hər bir şeyin özünəməxsus vibrasiyası var.

Nəticə: Əgər kiçik bir sürtünmə nəticəsində bir alma dəyişikliyə məruz qalırsa, deməli, mən övladımı qucaqlayıb öpdükdə, həyat yoldaşımla xoş davrandıqda və yaxud da qonşumu söydükdə, habelə əlimi qaşıdıqda kainata dəyişikliklər silsiləsinə məruz qalma göstərişi verirəm. Beynimizdən keçən hər bir fikir kainatdakı elektronların vibrasiyasına səbəb olaraq onları dəyişikliyə məruz qoyur. Qəm-qüssə məni kədərləndirirsə, deməli, mən səhvə yol verirəm. Qəm-qüssə məni ayıltmalı, daha zəkalı etməlidir. Çünki bədənimizin hər hansı hissəsi yaralandıqda, həmin hissəyə fokuslanır, onu aradan qaldırmağa çalışırıq. Qəm-qüssə də bizdə çarəsizlik yaratmamalı, ağrı-acıya təslim olmaq əvəzinə ona çarə tapmalıyıq. Çünki ağrı-acı bizim daha da ayılmağımız üçün bir fürsətdir.

**Son söz:** Əgər sevgi göstərdiyiniz şəxsdən sevgisizlik görsəniz, ümidsizliyə qapılıb sevgi göstərməkdən əl çəkməyin. Çünki sevginizin qarşılığını başqa bir fərddən, başqa bir münasibət və mövzu kontekstində görəcəksiniz. Buna görə deyirlər ki, elm fəlsəfi təlimlərə təsdiq möhürü vurur. Filosoflar dünyadakı hər şeyin qarşılıqlı əlaqədə olduğunu hesab edirlər. Sizdən yayılan bütün enerjilər sizə qayıdacaq. Buna görə də pozitiv olun ki, pozitivlə qarşılaşasınız!

Allahın da bizdən istədiyi məhz budur. Yaxşılıq görmək istəyirsənsə, yaxşı olmalısan, xoşbəxt olmaq istəyirsənsə, xoşbəxt etməlisən, yaxşı ilə qarşılaşmaq istəyirsənsə, pisin kökünü kəsib yaxşını yaymalısan. Unutma ki, sosial varlıq olduğun üçün tələblərin də sosialdır, nə olursan ol, nəyə nail olursan ol, ətrafını xoşbəxt etmədən özün xoşbəxt ola bilməzsən, ətrafını sevmədən sevgisizlik bədbəxtliyinə məruz qalacaqsan. Anla ki, nə qədər rifah içində yaşasan da, çevrən və bütün bəşəriyyət rifah içində deyilsə, rifahın nə olduğunu dada bilməyəcəksən. Elə hey ləzzət axtaracaqsan, zövq arayacaqsan, ancaq tapa bilməyəcəksən ki, bilməyəcəksən.

Famil Burxanoğlu

# İBRƏTAMİZ

## “BƏRƏKƏTLİ PUL” ƏHVALATI

Bir gün Həzrət Məhəmməd Peyğəmbər (s) Əli ibn Əbu Talibi (ə) bazara göndərdi ki, Onun üçün köynək alsın. Əli (ə) 12 dirhəmə bir köynək alıb gəldi. Peyğəmbər köynəyin qiymətini öyrənəndə buyurdu ki, bu cür bahalı köynəyi geyinməyə razı deyil. Sonra Əliyə (ə) tapşırdı ki, köynəyi aparıb qaytarsın. Əli (ə) satıcı ilə danışıb, köynəyi geri almağa onu razı saldı, 12 dirhəmi də gətirib Peyğəmbərə verdi.

Həzrət Məhəmməd Peyğəmbər (s) Əlini (ə) də özü ilə götürüb bazara yollandı ki, münasib bildiyi qiymətə köynək alsın. Yolda ağlayan bir kənizlə rastlaşdılar. Səbəbini soruşanda kəniz dedi ki, ağası ona dörd dirhəm pul verib bazarlığa göndərib. Amma yolda pul itib. Biçarə kəniz qorxusundan evə qayıtmağa qorxurdu.

Peyğəmbər əlindəki 12 dirhəmdən 4 dirhəm ayırıb kənizə verdi; tapşırdı ki, nə almalı idisə alsın və evə qayıtsın. Sonra Əli (ə) ilə birlikdə yoluna davam etdi. Onlar geyim satılan yerə gəldilər. Peyğəmbər soraqlaşıb özü üçün dörd dirhəmə bir köynək tapdı, pulunu verib köynəyi aldı.

Geri qayıdanda cırım-cındır içində gəzən bir səfilə rast gəldilər. Peyğəmbər aldığı köynəyi onun əyninə geyindirdi. Özü Əli (ə) ilə birlikdə yenə dükana qayıtdı, qalan dörd dirhəmə həmin köynəkdən daha birini alıb geyindi.

Evə qayıdanda yolda bayaqkı kənizlə rastlaşdılar. Kəniz bazarlığı edib küçədə durmuşdu. Peyğəmbər ondan soruşdu ki, niyə evə getmirsən? Kəniz cavab verdi: “Mən bayaq Sizinlə rastlaşana kimi itmiş pulu çox axtarmışdım, xeyli vaxt keçmişdi. Indi evə qayıtmağa qorxuram. Ağam məndən soruşacaq ki, bu qədər vaxtı harada idin?”.

Peyğəmbər mehribançılıqla cavab verdi: ”Qorxma, evinizi mənə göstər, mən ağanla danışaram ki, səni cəzalandırmasın“.

Qız qabağa düşüb yolu göstərdi. Qapıya çatanda Peyğəmbər ev sahibini səsləmək üçün uca səslə salam verdi. Üç dəfə salam verəndən sonra kənizin ağası qapını açdı, Peyğəmbərin salamının cavabını verdi, Ona xoşgəldin söylədi. Məlum oldu ki, o, Peyğəmbərin salamını eşidə-eşidə cavabını verməyi yubadırmış ki, o həzrət daha çox salam söyləsin, evə və onun sakinlərinə daha çox salamatlıq diləsin; çünki Peyğəmbərin duası müstəcab olar.

Ev sahibinin sözündən məlum oldu ki, o, Peyğəmbərin xatirini həddsiz dərəcədə əziz tutur. Peyğəmbər bu münasibətdən daha da ruhlanıb kənizin başına gələnləri ağasına danışdı və buyurdu: ”İndi səndən xahiş edirəm ki, bu qıza cəza verməyəsən“.

Ev sahibi Peyğəmbərin xahişinin müqabilində dedi: ”Ey Allahın Rəsulu! Mən nəinki bu kənizi bağışlayıram, hətta Sizin xatirinizə onu azad edirəm“.

Peyğəmbər ev sahibinin sözlərindən sevinib Allaha şükr etdi, buyurdu: ”Əlhəmdu lillah. Bu 12 dirhəm necə bərəkətli puldur ki, iki nəfər onun hesabına geyim əldə etdi, bir kəniz də azadlığa qovuşdu“.

## SƏXAVƏT DÖVLƏTLƏ ÖLÇÜLMƏZ

Peyğəmbərin əmisi nəvəsi, Imam Əlinin qardaşı oğlu Abdullah ibn Cəfər səxavəti ilə tanınan bir adam idi. Onu hətta səxavətdə Hatəmi-Taiyə bərabər tuturdular. Bir gün Abdullahın yolu bir bağın yanından düşür.

Baxıb görür ki, bağda qara dərili bir qul işləyir. Nahar vaxtı çatanda qulun yeməyini gətirib ona verirlər. O da süfrəsini açıb yerə sərir. Yeməyə başlamaq istəyəndə bir ac köpək ona yaxınlaşıb yazıq-yazıq ulamağa başlayır. Qul yemək tikələrindən birini köpəyə verir. Köpək çörəyi yeyəndən sonra yenə istəyir. Qul ikinci tikəni də ona yedizdirir. Köpək doymadığı üçün yenə yemək istəyir. Qul üçüncü tikəni də onun qabağına atır. Beləliklə, süfrədəki bütün yeməyi köpəyə verir, özü isə süfrəni yığışdırıb bir kənara qoyur və işinə davam edir.

Abdullah özünü saxlaya bilməyib qula yaxınlaşır və soruşur: «Niyə öz yeməyinin hamısını köpəyə verdin?». Qul cavab verir: «Nə bu həyatın sahibi, nə də ətrafdakılar it saxlamırlar. Bildim ki, bu köpək uzaqdan gəlib, mənə pənah gətirib. Onu ac qoyub özüm yeməyə utandım». Abdullah soruşur: «Özün üçün yemək saxlamadın?». Qul cavab verir: «Yox, bu, mənim bir günlük yeməyim idi». Abdullah heyrət içində qalır: «Bəs sabaha kimi nə yeyəcəksən?». Qul: «Heç nə. Ac qalıb sabaha kimi səbr edəcəyəm».

Abdullah qulun fədakarlığına valeh olur, öz-özünə deyir ki, bu qul məndən də səxavətlidir. Sonra Abdullah bağ sahibini tapıb bağı da, nökəri də ondan pulla alır. Qulu azad edir, bağı da ona bağışlayır.

(Feyz Kaşani. Əl-Məhəccətül-beyza, VI, 80).



# NOVRUZ BAYRAMI İslama ziddirmi?

**Novruz bayramının və bu bayrama qədərki son 4 Çərşənbələrin qeyd edilməsinin nə dərəcədə İslama uyğun olub-olmaması haqqında ilahiyyatçıların fikri:**

**- Novruz adət-ənənələri İslam dini ilə ziddiyyət təşkil edirmi?**

***Qasımbəyli məscidinin imam-cüməsi hacı Samir Ağayev:***

- İslam dini hər xalqın öz adət-ənənəsinə hörmətlə yanaşır, əlbəttə ki, əgər bu ənənə İslam təfəkkürünə uyğun gəlirsə. Hətta İslamdan qabaq cahil ərəblərdə olan bəzi ənənələr İslam dini tərəfindən bəyənilərək qorunub saxlanıb.

Biz Qurani-Kərimə baxdıqda da bunun şahidi oluruq. Məsələn, ərəblərdə İslamdan əvvəl 4 haram ay var idi. İlin bütün aylarında bir-biri ilə müharibə aparan ərəblər nəhayət öz aralarında razılığa gəlmişdilər ki, Zilqədə, Zilhiccə, Məhərrəm və Rəcəb aylarında müharibə etməsinlər. Sülhü dəstəkləyən İslam dini gəldikdən sonra bu adət-ənənəni bəyənib saxladı. Çünki bu ənənə İslam təfəkkürü və dünyagörüşü ilə uyğunluq təşkil edirdi. İslam dini də qan tökməyin, müharibənin əleyhinədir.

Novruz adət-ənənələrinə gəlincə, bu, İslamın təbliğ etdiyi əksər dəyərləri özündə ehtiva edir. Məsələn, küslülərin barışması, evlərin təmizlənməsi, təzə paltarların geyinilməsi, ətirlənmək, böyükləri, qohumları və yaxınları ziyarət etmək və s. bu kimi digər işlər Qurani-Kərimin tövsiyə etdiyi dəyərlərdir.

Bütün bu dəyərləri özündə cəmləşdirən bir bayram varsa, İslam onun lehinədir və bəyənir.

***Məşədi Dadaş məscidinin axundu hacı Şahin Həsənli***

- Ümumiyyətlə Novruz bayramının tarixi haqda tam dəqiq məlumatımız yoxdur. Tarixçilər, tədqiqatçılar Novruz bayramının kökləri ilə bağlı tam dəqiq fikir söyləyə bilmirlər. Lakin bu hamıya məlumdur ki, Novruz İslamdan da qabaqkı dövrlərdə mövcud olmuş qədim bir bayramdır. Novruzun əsas ayinlərinin, adət-ənənələrinin din ilə, İslam ilə heç bir ziddiyyəti yoxdur. İslam dininin yayıldığı coğrafi bölgələrdə xalqların yerli mədəniyyətlərini zənginləşdirib. Dinimiz İslamı qəbul etmiş xalqların adət-ənənələrini özünkiləşdirib və İslam dəyərlərinə uyğunlaşdıraraq qoruyub saxlayıb. Novruz da belə bayramlardan biridir.

Tarixçilər belə güman edirlər ki, Novruz İslam Peyğəmbərindən öncə yaşamış hansısa Peyğəmbərin təlimi ilə bağlıdır. Novruz bayramının Tövhidlə, Allahın birliyi ideyası ilə heç bir ziddiyyəti yoxdur. Təbii ki, bəzi xurafat adət-ənənələr var ki, din onları qəbul etmir. Ümumilikdə, baharın gəlişini, təbiətin oyanışını bayram etməyi, ədaləti tərənnüm edən bir dəyər olan gecə ilə gündüzün bərabər olmasını bayram etməyi İslam qadağan etmir, təbii ki, İslam dininin qayda-qanunları çərçivəsindən çıxmamaq şərti ilə.

**- Hədislərdə bu bayram haqda məlumatlar varmı?**

***Hacı Samir Ağayev:***

- Bəli. Məsələn məşhur bir hədisdə qeyd olunur ki, fars əsilli bir müsəlman İmam Əliyə (ə) şərbət verir. O Həzrət (ə) ondan bunun səbəbini soruşduqda bildirir ki, “Bizdə bu gün Novruz bayramıdır”. Həzrət Əli (ə) “Bu gündə daha nələr edirsiniz?” deyə soruşur. O Novruz adət-ənənələrinə xas olan küsülülərin barışması, evlərin təmizlənməsi, böyüklərin və yaxın qohumların ziyarət edilməsi kimi əməlləri sayandan sonra Həzrət Əli (ə) buyurur ki, “Hər gününüzü Novruz edin” və şərbəti alıb içir.

İmam Sadiqdən (ə) də Novruz bayramı barəsində hədislər var. Bundan başqa Novruz gününün duası və xüsusi namazı var. Hədislərdə “Qədir Xum” bayramı kimi bir neçə tarixi hadisələrin məhz Novruz bayramı günü baş verdiyi də bildirilir.

***Hacı Şahin Həsənli***

- Novruzla bağlı hədislər kifayət qədər var, lakin hədis alimləri bu hədislərin doğruluğunu şübhə altına alırlar. Bu hədislər sənəd və mənbə nöqteyi-nəzərindən səhih hesab olunmurlar.

**- El adətinə əsasən Novruz bayramına qədər Su, Od, Torpaq və Hava Çərşənbələri qeyd olunur. Bunlardan Od Çərşənbəsinin atəşpərəstliklə əlaqəsi varmı? Varsa, bu bidət deyilmi?**

***Hacı Samir Ağayev***

Mənim fikrimcə, Od Çərşənbəsinin atəşpərəstliklə heç bir əlaqəsi yoxdur. Əlbəttə ki, bu günlərdə İslama uyğun gəlməyən xurafatlar yolverilməzdir. İslam bunları bəyənmir və tövsiyə də etmir. Tonqal üstündən atlanmaq, yumurta döyüşdürmək və bənzəri əməllərin icrası barəsində dinimizdə heç bir məlumat və tövsiyə yoxdur.

***Hacı Şahin Həsənli:***

- Bu barədə də dəqiq məlumat yoxdur. Yəni dəqiq bilinmir ki, doğrudan da oda sitayiş etmək mənasındadır və ya atəşpərəstlikdən qaynaqlanır, yoxsa rəmzi olaraq insanın başına gələ biləcək çətinlikləri, bəlaları, dərdləri yandırması anlamındadır. Hər halda buna etiqad bəsləmək dini baxımdan səhvdir. Bir ayin kimi, bir adət-ənənə kimi qalırsa və insanların inancına təsir qoymursa, insanları mənfi yollara istiqamətləndirmirsə, bu ayinləri, əməlləri sırf adət-ənənə kimi icra etməyin bir eybi yoxdur. Əlbəttə kimlərsə oda etiqad edirsə, bu dini nöqteyi-nəzərdən yolverilməzdir. Lakin Azərbaycanda bu cür əqidədə olan insan yoxdur.

# MƏSCİDİN HÖKMLƏRİ

## MƏSCİDLƏR ALLAH EVİDİR

Allah evi olan məscid hər bir müsəlman üçün müqəddəs və əzizdir. Müsəlman şəxs məsciddə namaz qılır, mənən saflaşır, ruhən rahatlıq tapır. İslam tarixinə nəzər saldıqda görürük ki, məscid təkcə ibadət məkanı olmamış, orada islam elmləri ilə yanaşı, həmçinin bir çox dünyəvi elmlərin tədris ocağı və müsəlmanların problemlərini həll etmək üçün müzakirələrin keçirildiyi bir mərkəz olmuşdur.

Bu səbəbdən də Qurani-kərimdə məscidin tikintisi və təmiri Allaha və qiyamətə etiqadlı möminlərin şəni olaraq tanıtdırılır. ("Tövbə", ayə 18)

Amma məscidin zahirən tikintisi və təmirindən də mühümü ondakı mənəvi fəzanın yaradılmasıdır. Həqiqi mömin və din keşikçiləri bu fəzada tərbiyə olunur. Məscid insanların agahlıq və oyanışı, mühitin islahı üçün hərəkət mərkəzi olmalıdır.

*İmam Sadiq (ə) buyurur:*
*"Məscidə gedin. Çünki məscidlər yer üzündə olan Allahın evləridir".*




**İslam məscidi böyük tutmağı, onu müqəddəs saymağı və məsciddə müəyyən qayda-qanunlara əməl etmək haqda bəzi göstərişlər vermişdir. Həmin qaydalardan bəzilərini aşağıda qeyd edirik:**

- Məscidə gələn şəxs pak olmalıdır.
- Məscidə getməmişdən əvvəl gözəl, təmiz və yeni paltar geymək və xoş iyli ətir vurmaq.
- Məscidə sağ ayaqla daxil olmaq və oradan sol ayaqla çıxmaq.
- Məscidə daxil olarkən oradakı insanlara salam vermək.
- Məscidə daxil olduqdan sonra təzim əlaməti olaraq iki rükət namaz qılmaq.
- Məscidə əbəs, faydasız söhbətlərdən çəkinərək dua və Allah zikri ilə məşğul olmaq.
- Məsciddə gündəlik vacib namazlarını tək deyil, camaat şəklində qılmaq.
- Məscidin qonşuluğunda yaşayan şəxslər vacib namazlarını məsciddə qılmalı.
- Məscidin qapısı önündə dayanarkən Allahın əmrlərinə əməl edib qadağan etdiklərindən çəkinməli və mütilik hissləri duymaq. Məsciddə müsəlmanlara dini təlimlər öyrətmək üçün İslamın əsaslarını açıqlayan kurslar təşkil etmək.
- Məscidə hörmətsizlik olan bütün nalayiq əməllərdən çəkinmək.

### MƏSCİDDƏ AŞAĞIDAKI İŞLƏR MƏKRUHDUR:

- Məsciddə namaz qılmadan keçid məhəlli ünvanında ötüb keçmək;
- Ağız və burunun suyunu məscidin (həyətinə) atmaq;
- *Məsciddə yatmaq (çarəsizlik halı istisnadır).*
- *Məsciddə səsi ucaltmaq;*
- *Məsciddə alış-verişlə məşğul olmaq;*
- *Dünya işləri barəsində söhbət etmək;*
- *Soğan və ya sarmısaq yedikdən sonra ağzının iyi ilə insanları əziyyət edənin məscidə getməsi.*

Həzrət Peyğəmbər (s) buyurur: "Ey Əbuzər! O zamana qədər ki, məsciddə əyləşmisən, Allah Təala çəkdiyin hər nəfəsin sayına görə behiştdə sənə bir dərəcə verər. Mələklər sənə salam göndərər, məsciddə çəkdiyin hər nəfəsə görə sənə on həsənə yazılar. Səndən on günah pak olar".

Həzrət Peyğəmbər (s) buyurur: "Hər kim davamlı olaraq məscidə gedər, 8 şeyi əldə edər: möhkəm ayələr, əməl olunan vacibat, ya (Məsumlardan (ə) olan) sünnət, təzə elm, yeni qardaşlıq, onu hidayət edəcək söz, onu həlakətdən xilas edəcək söz, günahı qorxu və ya həya üzündən tərk etmək".

**Həzrət Peyğəmbər(s) buyurur: "Məsciddə hər əyləşənin işi yersizdir, məgər üç kəsdən başqa:
1.O namazqılan ki, (Quran) oxuyar. 2. O kəs ki, Allahı zikr edər. 3. O kəs ki, elm ardınca olar".**

*Gürcüstan Müsəlmanları İdarəsi*